


# BAYRAMLARINIZ MÜBARƏK!





RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN



№ 52 (10072) 20 mart 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Bütöv Azərbaycanın Zəfər tonqalı

Qarabağın xilaskarı İlham Əliyev 2021-ci il martın 20-də Şuşada, Cıdır düzündə bayram tonqalı alovlandırdı. Bu, azad Şuşada qalanan ilk Novruz tonqalı olaraq yaddaşlara yazıldı. Şuşada qalanan Zəfər tonqalı birliyin, bütövlüyün və sarsılmaz iradənin sönməz rəmzi kimi tarixə çevrildi.

Dövlət başçısı həmin gün xalqımıza müraciətində bu tarixi anın əhəmiyyətini belə ifadə etdi: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik".

2021-ci ilin martında Şuşada, Cıdır düzündə alovlanan o ilk tonqal Azərbaycanın müasir tarixinə sadəcə bir bayram hadisəsi kimi deyil, milli ləyaqətin bərpası kimi daxil oldu. Çünki bu od, atəş düşmənin "yenilməzlik mifi"nin külə çevrildiyini göstərdi, onilliklər boyu işğalın əbədiliyi barədə formalaşdırılan saxta təsəvvürlər həmin tonqalın alovu ilə yanıb yoxa çıxdı.

Tarix boyu bu torpaqlarda kök salmış Novruz ənənələri işğal dövründə zorla dayandırılmışdı. Müzəffər Ali Baş Komandanın Şuşada həmin tonqalı özü alovlandırması həm də azərbaycanlıların bu torpaqların əzəli sakinləri olmasını dünyaya bir daha nümayiş etdirdi. Gur alovlanan bayram tonqalı Azərbaycanın Şuşaya yalnız fiziki olaraq deyil, həm də dəyərləri, ruhu və kimliyi ilə qayıdışının simvolu oldu.

2021-ci ildə Şuşada alovlandırılan bu tonqalın işığı bütöv Azərbaycana yayıldı. O, təkcə Şuşanı deyil, bütün Qarabağı işıqlandıran çırağa çevrildi. Vətən qibləmizdə qalanan o atəşin hərarəti az sonra Xankəndidə, Xocalıda və Ağdərədə... alovlanacaq qələbə tonqallarına da sirayət etdi.

Xilaskar lider İlham Əliyevin hər il azad olunmuş bölgələrimizin birində tonqal qalaması artıq müqəddəs bir ənənəyə çevrilib. 2024-cü il martın 18-də Xankəndi şəhərində alovlanan tonqal isə bütöv Azərbaycanın suverenliyinin simvolu idi.

12

## Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir

### Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Mənəvi-əxlaqi kamilliyi və nəcib niyyətləri özündə təcəssüm etdirən, insanların ruhunu və təfəkkürünü saflaşdıran on bir ayın sultanı Ramazan artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, yardımlaşma, şəfqət və mərhəmət kimi xeyirxah əməllərin sevincini yaşayırlar.

Azərbaycan yüzillərdir ki, ayrı-ayrı etiqad və inancların əmin-amanlıq şəraitində dinc yanaşı mövcud olduğu nadir məkanlardandır. Bəşəriyyəti daim sülhə, humanizmə və qardaşlığa dəvət edən islam dini tarixən cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin və milli-mənəvi həmrəyliyin bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir, xeyirxahlığın və savab əməllərin təntənəsinə çevrilir. Bu mübarək günlərdə dövlətimizin əmin-amanlığı, firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qoşulur, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

## İlham Əliyevlə Şavkat Mirziyoyev arasında telefon danışığı olub

Martın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında telefon danışığı olub.

Şavkat Mirziyoyev dövlətimizin başçısını və qardaş Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan və Novruz bayramları münasibətilə təbrik edib, xalqımıza ən xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, öz növbəsində Şavkat Mirziyoyevi və qardaş özbək xalqını bayramlar münasibətilə təbrik edib, Özbəkistana gələcəkdə də firavanlıq və rifah arzulayıb.

Telefon söhbəti zamanı həmçinin Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq bildirilib.



Azərbaycan və Özbəkistan prezidentləri Yaxın Şərqdəki mövcud vəziyyətdən narahatlıqlarını ifadə edib, gərginliyin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Telefon danışığı əsnasında həmçinin qarşılıqlı maraq doğuran məsələlərə və gələcək təmaslara dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## İlahi mərhəmət və mənəvi kamillik ayı təqvimi tərk etsə də, ruhumuzda qalır

Ramazan insanın daxilinə yönəldiyi, ruhunun dərinliklərinə enərək özünü yenidən kəşf etdiyi İlahi bir fürsətdir. Bu müqəddəs ayda edilən hər bir yaxşılıq, deyilən hər bir xoş söz, edilən yardım insanın mənəvi dünyasını zənginləşdirir, onu daha saf, kamil bir varlığa çevirir. İnsan Ramazan ayında yalnız bədəni ilə deyil, ruhu ilə də oruc tutur - kinindən, nifrətindən, tamahından uzaqlaşaraq saflaşır, yenilənir, ucalır.



Yola saldığımız bu ay zamanın ən mübarək, işıqlı anlarının cəmləndiyi İlahi mərhələdir. Bu ay insan ruhuna nur bəxş edən, qəlbləri saflaşdıran, mənəvi dünyamızı zənginləşdirən bir hikmət məktəbidir. Bu ayda insan nəfsinə qalib gəlir, xeyirlə şərin mübarizəsində imanla iradənin vəhdətini tapır, ruhən ucalaraq Tanrıya daha da yaxınlaşır. Duaların qəbul olunduğu, niyyətlərin saflaşdığı bu müqəddəs zaman kəsiyi bəşəriyyətə mərhəmət, bağışlama və ümid mesajı verir. Ramazan Allahın qüdrətindən pay verib insanların yoluna nur çilədiyi, Tanrının dörd müqəddəs səmavi kitabını - Tövratı, Zəburu, İncili və Quranı göndərdiyi aydır. Ramazan xoş niyyət, arzu, dilək ayıdır. Ramazan imanın sınağa çəkildiyi, duaların qəbul olunduğu aydır.

18

## Ardıcıl, sistemli və sürətli…

### Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində bütün işlər uğurla yerinə yetirilir

Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmaqla yanaşı, həm də milli ideya səviyyəsinə yüksəlib. Bu proses ölkəmizin suverenliyinin, gücünün və qətiyyətinin nümunəsidir. Görülən işlər həm keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etməyə, həm də regionda dayanıqlı sosial-iqtisadi inkişafı formalaşdırmağa xidmət edir.



11

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94 cü maddəsinin I hissəsinin 6-cı, 17-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 332-VIIQD və 335-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 271-ci maddə üzrə:

1.1.1. adında "Kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.1.2. 271.1-ci maddənin dispozisiyasında "Kompyuter" sözü "İKT" akronimi ilə, "kompyuter məlumatlarını" sözləri "elektron verilənləri" sözləri ilə əvəz edilsin;

1.1.3. 271.3-cü maddənin dispozisiyasında "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.1.4. "Qeyd" hissəsi üzrə:

1.1.4.1. 1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1. Bu Məcəllənin 271-273-2-ci maddələrində "İKT sistemi" dedikdə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.49-cu maddəsində, "elektron verilənlər" dedikdə həmin Məcəllənin 7.0.50-ci maddəsində nəzərdə tutulmuş anlayışlar başa düşülür.";

1.1.4.2. 2-ci bənd ləğv edilsin;

1.2. 272-ci maddə üzrə:

1.2.1. adında "Kompyuter məlumatlarını" sözləri "Elektron verilənləri" sözləri ilə əvəz edilsin;

1.2.2. 272.1-ci maddənin dispozisiyasında "Kompyuter", birinci və dördüncü hallarda "kompyuter" sözləri "İKT" akronimi ilə, hər iki halda "kompyuter məlumatlarının" sözləri "elektron verilənlərin" sözləri ilə əvəz edilsin;

1.2.3. 272.3-cü maddənin dispozisiyasında "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.3. 273-cü maddə üzrə:

1.3.1. adında "Kompyuter" sözü "İKT" akronimi ilə, "kompyuter məlumatlarına" sözləri "elektron verilənlərə" sözləri ilə əvəz edilsin;

1.3.2. 273.1-ci maddənin dispozisiyasında "Kompyuter məlumatlarının" sözləri "Elektron verilənlərin" sözləri ilə əvəz edilsin;

1.3.3. 273.2-ci maddənin dispozisiyasında "Kompyuter məlumatlarının" sözləri "Elektron verilənlərin" sözləri ilə, "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.3.4. 273.4-cü maddənin dispozisiyasında "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.3.5. "Qeyd" hissəsinin 2-ci bəndində hər dörd halda "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.4. 273-1.2-ci və 273-1.3-cü maddələrin dispozisiyasında "kompyuter" sözü "İKT" akronimi ilə əvəz edilsin;

1.5. 273-2-ci maddə üzrə:

1.5.1. adında "Kompyuter məlumatlarının" sözləri "Elektron verilənlərin" sözləri ilə əvəz edilsin;

1.5.2. dispozisiyada hər iki halda "kompyuter məlumatlarını" sözləri "elektron verilənləri" sözləri ilə, "kompyuter məlumatları" sözləri "elektron verilənlər" sözləri ilə, "kompyuter məlumatlarının" sözləri "elektron verilənlərin" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538,№ 7, maddə 607, № 8, maddələr 736, 743, № 11, maddə 1011) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7.0.48-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.0.49 - 7.0.54-cü maddələr əlavə edilsin:

"7.0.49. **informasiya və kommunikasiya texnologiyaları sistemi (bundan sonra - İKT sistemi)** -proqram təminatı əsasında elektron verilənləri toplayan, saxlayan və avtomatik emal edən hər hansı qurğu və ya qarşılıqlı qoşulmuş və ya əlaqələndirilmiş qurğular qrupudur;

7.0.50. **elektron verilənlər** - faktların, məlumatların və ya anlayışların İKT sistemində emal üçün yararlı formada olan hər hansı təsviri, o cümlədən İKT sisteminin müəyyən funksiya yerinə yetirməsini təmin edən proqramdır;

7.0.51. **xidmət provayderi** - göstərdiyi xidmətlərin istifadəçilərini İKT sistemi vasitəsilə kommunikasiya imkanı ilə təmin edən, yaxud belə kommunikasiya xidmətləri və ya xidmət istifadəçiləri üçün elektron verilənlərin emalını və ya saxlanılmasını həyata keçirən istənilən dövlət orqanı (qurumu), hüquqi və ya fiziki şəxsdir;

7.0.52. **trafik verilənləri** - kommunikasiyanın mənbəyini, təyinat yerini, marşrutunu, vaxtını, tarixini, ölçüsünü, müddətini və ya xidmətin növünü göstərən, kommunikasiya zəncirinin tərkib hissəsini təşkil edən İKT sistemi tərəfindən yaradılan, İKT sistemi vasitəsilə həyata keçirilən kommunikasiya ilə əlaqəli olan hər hansı elektron verilənlərdir;

7.0.53. **abunəçi məlumatları** - trafik və ya məzmun verilənləri istisna olmaqla, istifadə edilən kommunikasiya xidmətinin növü, bu xidmətə dair texniki təminat tədbirləri və xidmətin göstərilmə müddəti, xidmət müqaviləsi və ya razılaşması əsasında əldə edilən abunəçinin şəxsiyyəti, poçt və ya coğrafi ünvanı, telefon və digər əlaqə nömrəsi, hesablaşma və ya ödəniş məlumatları, kommunikasiya avadanlıqlarının quraşdırıldığı yerlər haqqında hər hansı məlumatları müəyyən etməyə imkan verən xidmət provayderinin göstərdiyi xidmətlərin istifadəçiləri barədə xidmət provayderində saxlanılan istənilən məlumatlardır;

7.0.54. **məzmun verilənləri** - abunəçi məlumatları və ya trafik verilənləri istisna olmaqla, şəkillər, mətn mesajları, səsli mesajlar, audioyazılar və videoyazılar da daxil olmaqla İKT sistemi vasitəsilə ötürülən məlumatın mahiyyəti ilə əlaqəli hər hansı elektron verilənlərdir.";

2.2. 16.2-ci maddədə "tutulması" sözü ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin) ələ keçirilməsi" sözləri ilə əvəz edilsin;

2.3. 51-1-ci və 51-2-ci maddələr müvafiq olaraq 51-3-cü və 51-4-cü maddələr hesab edilsin və aşağıdakı məzmunda 51-1-ci və 51-2-ci maddələr əlavə edilsin:

**"Maddə 51-1. Cinayət mühakimə icraatının elektron qaydada aparılması**

51-1.1. Elektron qaydada cinayət mühakimə icraatı bu Məcəllənin 51-2-ci və 51-3-cü maddələrində nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydalara uyğun olaraq həyata keçirilir.

51-1.2. Cinayət mühakimə icraatı zamanı prosessual sənədlərin elektron formada tərtib edilməsi, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

51-1.3. Cinayət mühakimə icraatının elektron qaydada aparılması zamanı sənəd dövriyyəsinin və cinayət-prosessual fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

51-1.4. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş sənədlər kağız daşıyıcıda olan sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

51-1.5. Bu Məcəllədə kağız daşıyıcıda tərtib olunması nəzərdə tutulan sənədlər gücləndirilmiş elektron imza və sertifikatlaşdırılmış elektron imza vasitələri ilə imzalanmaqla göndərilə, saxlanıla və yoxlanıla bilər.

51-1.6. Kağız daşıyıcıda verilmiş və ya tərtib edilmiş sənədlər cinayət mühakimə icraatını elektron qaydada aparan təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən gücləndirilmiş elektron imza və sertifikatlaşdırılmış elektron imza vasitələri ilə imzalanmaqla müvafiq informasiya sistemlərinə yüklənilir.

51-1.7. İstintaq və ya digər prosessual hərəkətlərin aparılması zərurəti yarandıqda cinayət prosesini həyata keçirən orqan müvafiq informasiya sistemi vasitəsilə göndərilmiş sənədin əslini tələb edə bilər.

51-1.8. Cinayət mühakimə icraatı elektron qaydada aparıldıqda cinayət təqibi üzrə materialların məhv edilməsinin qarşısının alınması məqsədilə onların ehtiyat nüsxəsinin formalaşdırılaraq saxlanılması cinayət prosesini həyata keçirən orqanlar tərəfindən təmin edilir.

**Maddə 51-2. Məhkəməyədək icraatın elektron qaydada aparılması**

51-2.1. Elektron qaydada məhkəməyədək icraat cinayət təqibi orqanlarının müvafiq informasiya sistemləri vasitəsilə həyata keçirilir. Prosessual sənədlər və digər məlumatlar bu Məcəllə ilə müəyyən edilmiş qaydalara uyğun olaraq cinayət təqibi orqanlarının müvafiq informasiya sistemləri vasitəsilə elektron qaydada mübadilə edilə bilər.

51-2.2. Cinayət təqibi orqanlarının müvafiq informasiya sistemlərində cinayət prosesinin iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq, prosessual sənədləri göndərmək və qəbul etmək, habelə prosessual hərəkətdə iştirak etmək imkanlarını təmin edən elektron kabinet yaradılır.

51-2.3. Məhkəməyədək icraat elektron qaydada həyata keçirildikdə cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər cinayət təqibi orqanlarının müvafiq informasiya sistemlərində qeydiyyatdan keçmişlərsə, bu Məcəlləyə əsasən həmin şəxslərə verilməsi nəzərdə tutulmuş prosessual sənədlər və digər məlumatlar onların elektron kabinetlərində yerləşdirilir. Bu barədə həmin şəxslərə cinayət təqibi orqanlarının müvafiq informasiya sistemləri vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) məlumat verilir. Sənəd elektron kabinetdə yerləşdirildikdə və bu barədə sənədin göndərildiyi şəxsə məlumatın elektron qaydada verilməsi təmin edildikdə o, rəsmi qaydada verilmiş hesab edilir.

51-2.4. Bu Məcəllənin 51-2.3-cü maddəsində nəzərdə tutulmuş şəxslər bu Məcəlləyə əsasən cinayət təqibi orqanına təqdim etmək hüququna malik olduqları prosessual sənədləri müvafiq elektron kabinetləri vasitəsilə göndərə bilərlər.";

2.4. 51-3-cü maddə üzrə:

2.4.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 51-3. Məhkəmə icraatının elektron qaydada aparılması";**

2.4.2. 51-3.2-ci maddə ləğv edilsin;

2.4.3. 51-3.3-cü maddəyə "etmək" sözündən sonra ", habelə prosessual hərəkətlərdə iştirak etmək" sözləri əlavə edilsin;

2.4.4. 51-3.4-cü və 51-3.5-ci maddələr ləğv edilsin;

2.4.5. 51-3.6-cı maddənin birinci cümləsində "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə cinayət" sözləri "Cinayət" sözü ilə əvəz edilsin;

2.4.6. 51-3.7-ci maddədə "51-1.6-cı" sözləri "51-3.6-cı" sözləri ilə əvəz edilsin;

2.4.7. 51-3.8-ci maddədə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə" sözləri "Məhkəmə icraatı elektron qaydada aparıldıqda" sözləri ilə, "həmin sistemdə" sözləri "Elektron məhkəmə" informasiya sistemində" sözləri ilə əvəz edilsin;

2.4.8. 51-3.9-cu maddədə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə" sözləri "Məhkəmə icraatı elektron qaydada aparıldıqda" sözləri ilə əvəz edilsin;

2.4.9. 51-3.10-cu maddə ləğv edilsin;

2.4.10. 51-3.11-ci maddədə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə, məhkəmə," sözləri "Məhkəmə" sözü ilə əvəz edilsin;

2.4.11. 51-3.12-ci maddədə "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmənin" sözləri "Məhkəmənin" sözü ilə əvəz edilsin;

2.5. 51-4-cü maddə üzrə:

2.5.1. 51-4.1.1-ci, 51-4.1.2-ci və 51-4.1.4-cü maddələrdə "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.5.2. 51-4.2-ci maddədə "51-2-ci" sözləri "51-4-cü" sözləri ilə əvəz edilsin;

2.5.3. 51-4.3-cü maddənin birinci cümləsində "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.5.4. 51-4.4-cü maddənin birinci və ikinci cümlələrində "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.5.5. 51-4.5-ci maddənin ikinci cümləsində "51-2.1.2-ci" sözləri "51-4.1.2-ci" sözləri ilə, "51-2.1.4-cü" sözləri "51-4.1.4-cü" sözləri ilə əvəz edilsin;

2.5.6. 51-4.9-cu maddədə "51-2-ci" sözləri "51-4-cü" sözləri ilə əvəz edilsin;

2.5.7. 51-4.10-cu maddədə "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.5.8. 51-4.11-ci maddədə "51-2.4-cü" sözləri "51-4.4-cü" sözləri ilə, "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.5.9. 51-4.12-ci maddənin birinci və ikinci cümlələrində "51-2.1-ci" sözləri "51-4.1-ci" sözləri ilə əvəz edilsin;

2.6. 52-ci maddə üzrə:

2.6.1. 52.2-ci maddənin ikinci cümləsində "tikilməsini" sözü "əlavə edilməsini" sözləri ilə əvəz edilsin;

2.6.2. 52.4-cü maddəyə "işinin" sözündən sonra "kağız daşıyıcıda olan" sözləri əlavə edilsin;

2.6.3. 52.6-cı maddəyə "sənədlərin" sözündən sonra "və ya elektron verilənlərin" sözləri əlavə edilsin;

2.7. 54-1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"54-1.5. Prosessual sənədlər bu Məcəllənin 51-2-ci və 51-3-cü maddələrində müəyyən edilmiş qaydada müvafiq informasiya sistemləri vasitəsilə çatdırıla bilər.";

2.8. 92.3.16-cı maddədə "51-2-ci" sözləri "51-4-cü" sözləri ilə əvəz edilsin;

2.9. aşağıdakı məzmunda 124.2.3-1-ci və 133-1-133-3-cü maddələr əlavə edilsin:

"124.2.3-1. elektron formada sübutlar;";

**"Maddə 133-1. Elektron formada sübutlar**

133-1.1. Cinayət təqibi üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə kömək edən elektron verilənlər, o cümlədən abunəçi məlumatları, trafik və ya məzmun verilənləri cinayət prosesini həyata keçirən orqanın qərarı ilə bu Məcəllənin tələbləri nəzərə alınmaqla elektron formada sübut hesab edilə bilər.

133-1.2. Elektron verilənlər cinayət-prosessual qanunvericiliyin tələblərinə riayət etməklə əldə edildikdə sübut kimi qəbul edilə bilər.

**Maddə 133-2. Elektron formada sübutların saxlanılması**

133-2.1. Elektron formada sübutlar və onların saxlanıldığı daşıyıcılar (bu Məcəllənin 133-3-cü maddəsinə əsasən mühafizəsinin təmin edilməsi üçün verilməsi halları istisna olmaqla) cinayət prosesini həyata keçirən orqan tərəfindən cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilir və işin bütün saxlanma müddəti ərzində işdə saxlanılır.

133-2.2. Elektron formada sübutlar və onların saxlanıldığı daşıyıcılar tamlığı və təhlükəsizliyi təmin ediləcək şəkildə qorunub saxlanılmalıdır.

133-2.3. Götürülmüş və işə əlavə edilmiş elektron formada sübutları cari uçot, hesabat və digər hüquqauyğun məqsədlər üçün qanuni sahib tələb etdikdə, ona həmin elektron formada sübutlardan və ya onların saxlanıldığı daşıyıcılardan müvəqqəti istifadə etmək və ya elektron verilənlərin surətini çıxarmaq imkanı verilməlidir.

133-2.4. Məhkəmənin hökmü qanuni qüvvəyə mindiyi gündən bir il keçdikdən sonra və ya cinayət prosesini həyata keçirən orqanın cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərarı qüvvəyə mindikdən sonra cinayət təqibi üzrə icraatın materiallarında olan elektron formada sübutlar və ya onların saxlanıldığı daşıyıcılar qanuni sahiblərinin xahişi ilə onlara qaytarıla bilər. Bu halda müstəntiq, prokuror və ya məhkəmə qaytarılan elektron formada sübutların surətlərini çıxarmalı, doğruluğunu təsdiq etməli və cinayət təqibi üzrə icraatın materiallarında saxlamalıdır.

**Maddə 133-3. Elektron verilənlərin mühafizəsinin təmin edilməsi**

133-3.1. Cinayət təqibi üzrə əhəmiyyət kəsb edən İKT sistemində, onun hissələrində və ya daşıyıcılarda saxlanılan elektron verilənlərin, o cümlədən xidmət provayderində saxlanılan məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin) itkiyə və ya modifikasiyaya məruz qalmasının qarşısını almaq məqsədilə cinayət prosesini həyata keçirən orqanın qərarı əsasında beynəlxalq təhlükəsizlik standartlarına uyğun olaraq şifrləmə və ya digər müvafiq texniki tədbirlər görülür. Cinayət prosesini həyata keçirən orqanın bu barədə qərarında şifrləmə və ya digər texniki tədbirin obyekti, məzmunu, müddəti, şərtləri, tədbirlərin görülməsi tapşırılan şəxslər və əhəmiyyət kəsb edən digər hallar göstərilir. Şifrləmə və ya digər texniki tədbirlər sahibliyində müvafiq elektron verilənlər olan fiziki və ya hüquqi şəxslər, yaxud cinayət prosesini həyata keçirən orqanın müəyyən etdiyi digər şəxslər tərəfindən görülür.

133-3.2. Bu Məcəllənin 133-3.1-ci maddəsində nəzərdə tutulan elektron verilənlərin şifrləmə və ya digər müvafiq texniki tədbirlər tətbiq edilsə də, itkiyə və ya modifikasiyaya məruz qala biləcəyini güman etməyə kifayət qədər əsaslar olduqda, cinayət prosesini həyata keçirən orqan sahibliyində belə elektron verilənlər olan fiziki, hüquqi və ya vəzifəli şəxsə həmin elektron verilənlərin, o cümlədən xidmət provayderində saxlanılan məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin) 90 (doxsan) gündən çox olmayan müddət ərzində mühafizə və toxunulmazlığının təmin edilməsinin tapşırılması barədə qərar qəbul edə bilər. Bu müddət cinayət təqibi üzrə icraat başa çatanadək uzadıla bilər. Cinayət prosesini həyata keçirən orqanın qərarında mühafizə edilməsi nəzərdə tutulan elektron verilənlərin məzmunu, mühafizənin müddəti, şərtləri, mühafizənin təmin edilməsi tapşırılan şəxslər və əhəmiyyət kəsb edən digər hallar göstərilir. Mühafizənin təmin edilməsi ilə bağlı tədbirlər sahibliyində müvafiq elektron verilənlər olan fiziki və ya hüquqi şəxslər, yaxud cinayət prosesini həyata keçirən orqanın müəyyən etdiyi digər şəxslər tərəfindən görülür.

133-3.3. Elektron verilənlərin mühafizəsi tapşırılmış şəxs bu cür prosedurların həyata keçirilməsi ilə bağlı konfidensiallığı qorumalıdır.";

2.10. 134.2.8-ci maddəyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.11. 143.2-ci maddədə "əşyaları təqdim etməyə" sözləri "əşyaların, elektron verilənlərin təqdim edilməsini" sözləri ilə əvəz edilsin;

2.12. 177-ci maddə üzrə:

2.12.1. 177.3.1-ci maddədə "yerinə" sözü "yerində" sözü ilə, "binalarına" sözü "binalarında" sözü ilə əvəz edilsin;

2.12.2. aşağıdakı məzmunda 177.3.1-1-ci maddə əlavə edilsin:

"177.3.1-1. İKT sisteminə, onun hissələrinə, elektron verilənlərin saxlanıldığı daşıyıcılara və elektron verilənlərə baxış, onlarda axtarış, habelə onların və elektron verilənlərin götürülməsi;";

2.12.3. 177.3.5-ci maddəyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.12.4. aşağıdakı məzmunda 177.4.1-1-ci maddə əlavə edilsin:

"177.4.1-1. İKT sisteminə, onun hissələrinə, elektron verilənlərin saxlanıldığı daşıyıcılara və elektron verilənlərə baxış, onlarda axtarış, o cümlədən bu Məcəllənin 245.11.2-ci maddəsində nəzərdə tutulmuş qaydada aparılan genişləndirilmiş axtarış, habelə İKT sistemini, onun hissələrini, elektron verilənlərin saxlanıldığı daşıyıcıları və elektron verilənləri götürmə - bu Məcəllənin 243.3.1-1-ci maddəsində nəzərdə tutulmuş hallar olduqda;";

2.12.5. 177.4.4-cü maddəyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.12.6. 177.6-cı maddədə "maddəsində" sözü "və 177.3.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

2.13. 236-cı maddə üzrə:

2.13.1. 236.1-ci maddəyə "əşyaların," sözündən sonra "İKT sistemlərinin, onların hissələrinin, elektron verilənlərin saxlanıldığı daşıyıcıların və ya elektron verilənlərin," sözləri əlavə edilsin;

2.13.2. 236.5-ci maddəyə "sənədləri," sözündən sonra "İKT sistemini, onun hissələrini, elektron verilənlərin saxlanıldığı daşıyıcıları və ya elektron verilənləri," sözləri əlavə edilsin;

2.13.3. 236.9-cu maddəyə "obyektlərə" sözündən sonra ", habelə İKT sistemlərinə, onların hissələrinə, elektron verilənlərin saxlanıldığı daşıyıcılara və ya elektron verilənlərə" sözləri əlavə edilsin;

2.13.4. aşağıdakı məzmunda 236.10-cu maddə əlavə edilsin:

"236.10. İKT sistemlərinə, onların hissələrinə, elektron verilənlərin saxlanıldığı daşıyıcılara və ya elektron verilənlərə baxış zamanı elektron verilənlərin götürülməsi zərurəti yarandıqda, həmin məlumatların götürülməsi bu Məcəllənin 244.3, 245.11-245.14-cü və 247.6-cı maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə aparılır.";

2.14. aşağıdakı məzmunda 242.4-cü və 243.3.1-1-ci maddələr əlavə edilsin:

"242.4. Əldə olunan sübutlar və ya əməliyyat-axtarış fəaliyyətinin materialları hər hansı İKT sistemində, onun hissələrində, elektron verilənlərin saxlanıldığı daşıyıcılarda və ya elektron verilənlərdə iş üzrə sübut əhəmiyyətinə malik ola biləcək məlumatların olmasını güman etməyə kifayət qədər əsas verdikdə, həmin sistemdə, onun hissələrində, elektron verilənlərin saxlanıldığı daşıyıcılarda və elektron verilənlərdə axtarış aparıla və İKT sistemi, onun hissələri, elektron verilənlərin saxlanıldığı daşıyıcılar və ya elektron verilənlər götürülə bilər.";

"243.3.1-1. şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən İKT sisteminin, onun hissələrinin, elektron verilənlərin saxlanıldığı daşıyıcıların və ya elektron verilənlərin gizlədilməsini və ya məhv edilməsini;";

2.15. 244.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 242.4-cü maddəsində nəzərdə tutulmuş hallarda axtarış və ya götürmənin aparılmasında mütəxəssisin iştirakı təmin edilir.";

2.16. aşağıdakı məzmunda 245.11-245.14-cü və 247.6-cı maddələr əlavə edilsin:

"245.11. Bu Məcəllənin 242.4-cü maddəsində nəzərdə tutulan hallarda axtarış aparılarkən müstəntiq bu Məcəllənin 177.2-177.6-cı maddələrində nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla aşağıdakı tədbirləri görmək hüququna malikdir:

245.11.1. İKT sisteminə, onun hissələrinə, elektron verilənlərin saxlanıldığı daşıyıcılara və ya elektron verilənlərə daxil olmaq;

245.11.2. axtarılan məlumatların axtarış aparılan yerdən kənarda yerləşən və ilkin axtarış aparılan İKT sistemi vasitəsilə qanuni daxil olmanın mümkün olduğu digər İKT sistemində mövcudluğuna dair kifayət qədər əsaslar olduqda davam edən axtarışı təxirəsalınmadan genişləndirərək həmin İKT sisteminə daxil olmaq;

245.11.3. daxil olduğu İKT sistemində mövcud olan elektron verilənlərə girişi qadağan etmək və ya aşkar zərurət olduğu halda, həmin elektron verilənləri İKT sistemindən silməklə götürmək;

245.11.4. iş üçün əhəmiyyət kəsb edən elektron verilənlərin surətini çıxarmaqla götürmək və saxlamaq;

245.11.5. iş üçün əhəmiyyət kəsb edən elektron verilənlər aşkar olunduqda və ya bu halların mövcudluğunu yerində müəyyən etmək qeyri-mümkün olduqda İKT sistemini, onların hissələrini və ya elektron verilənlərin saxlanıldığı daşıyıcıları götürmək;

245.11.6. İKT sisteminin fəaliyyət göstərməsi və ya orada saxlanılan məlumatların mühafizəsi üçün həyata keçirilən tədbirlər haqqında məlumatlara malik olan şəxslərdən bu Məcəllənin 245.11.1-245.11.5-ci maddələrində nəzərdə tutulmuş tədbirləri həyata keçirməyə imkan verən zəruri məlumatların verilməsini tələb etmək.

245.12. İKT sisteminin, onun hissələrinin, elektron verilənlərin saxlandığı daşıyıcıların götürülməsi nəzərdən keçirildikdə, ilk növbədə onlar götürülmədən elektron verilənlərin götürülməsi mümkünlüyü qiymətləndirilir. Elektron verilənlərin götürülməsi zamanı onların zədələnməsi və ya təhrif olunmasını güman etməyə kifayət qədər əsaslar olduqda, yaxud İKT sisteminin, onun hissələrinin, elektron verilənlərin saxlandığı daşıyıcıların götürülməməsi cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane ola biləcəyi hallarda axtarış aparılan ərazidə qanuni fəaliyyətin davamlılığının təmin edilməsi üçün mümkün tədbirlər görülməklə İKT sistemi, onun hissələri, elektron verilənlərin saxlanıldığı daşıyıcılar götürülür.

245.13. Zərurət aradan qalxdıqda cinayət prosesini həyata keçirən orqan götürülmüş İKT sistemini, onun hissələrini, elektron verilənlərin saxlanıldığı daşıyıcıları və ya elektron verilənləri dərhal qanuni sahibinə qaytarmalıdır.

245.14. Elektron verilənlər götürüldükdə onların tamlığı və təhlükəsiz saxlanılması təmin edilməlidir. Daşıyıcıya köçürüldüyü zaman elektron verilənlərin zədələnməsi və ya təhrif olunmasını güman etməyə kifayət qədər əsaslar olduqda və ya cinayət işinin istintaqına mane ola bilən hallarda zəruri prosessual hərəkətlər yerinə yetirilənədək elektron verilənlərin köçürülməsinə yol verilmir.";

"247.6. Bu Məcəllənin 245.11-ci və 245.13-cü maddələrində nəzərdə tutulmuş hallarda işə aid olan əldə edilmiş məlumatlar müstəntiq tərəfindən axtarış və ya götürmə protokolunda ətraflı göstərilir.";

2.17. 259-cu maddə üzrə:

2.17.1. adına ikinci halda "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.17.2. 259.1-ci maddə üzrə:

2.17.2.1. birinci cümləyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.17.2.2. ikinci cümləyə "cinayət" sözündən əvvəl ", habelə xidmət provayderində saxlanılan digər məlumatlarda (abunəçi məlumatlarında, trafik və məzmun verilənlərində)" sözləri, ikinci halda "məlumatın" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.17.2.3. üçüncü cümləyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.17.3. 259.4-cü maddəyə "məlumatların" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatların (abunəçi məlumatlarının, trafik və məzmun verilənlərinin)" sözləri əlavə edilsin;

2.17.4. 259.5-ci maddə üzrə:

2.17.4.1. birinci cümləyə ikinci halda "məlumatlar" sözündən sonra ", habelə xidmət provayderində saxlanılan digər məlumatlar (abunəçi məlumatları, trafik və məzmun verilənləri)" sözləri əlavə edilsin;

2.17.4.2. ikinci cümlədə "maqnit" sözü "elektron" sözü ilə əvəz edilsin;

2.18. 285.1-ci maddənin birinci cümləsinə ikinci halda "cilddə" sözündən sonra "və ya məhkəməyədək icraatın elektron qaydada aparıldığı halda cinayət təqibi orqanlarının müvafiq informasiya sistemləri vasitəsilə" sözləri əlavə edilsin;

2.19. 292.1-ci maddə üzrə:

2.19.1. "sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə" sözləri "sisteminə" sözü ilə əvəz edilsin;

2.19.2. aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Məhkəməyədək icraat elektron qaydada aparıldığı halda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror cinayət işini "Elektron prokurorluq"informasiya sistemi vasitəsilə "Elektron məhkəmə" informasiya sisteminə göndərir. Cinayət təqibi üzrə icraatın materiallarına əlavə edilərək elektron qaydada göndərilə bilməyən maddi sübutlar, sənədlər və digər əşyalar məhkəməyə bilavasitə təqdim edilir.";

2.20. 297.0.2-ci maddədə "sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə" sözləri "sisteminə" sözü ilə əvəz edilsin;

2.21. 301.2.10-cu, 311.4-cü maddələrdə və 328.3-cü maddənin birinci cümləsində "51-2-ci" sözləri "51-4-cü" sözləri ilə əvəz edilsin;

2.22. 476.0.1-ci və 480.5.1-ci maddələrdə "sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri "sisteminə yerləşdirir, məhkəməyədək icraat elektron qaydada aparıldığı halda icraatın materiallarını "Elektron prokurorluq" informasiya sistemi vasitəsilə "Elektron məhkəmə" informasiya sisteminə göndərir" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində,"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında","Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü, 5-ci, 10-cu, 15-ci,16-cı,17-ci,18-ci, 19-cu, 20-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 274 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 756) 209.2-ci maddəsində "15000 manat" sözləri "respublika üzrə ildə bir dəfə müəyyən edilən orta aylıq nominal əməkhaqqının 20 misli" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627) 334.1.2-ci maddəsinə "işçilərinin" sözündən sonra "(müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378 (Cild I); 2024, № 11, maddə 1183) 10-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hərbi xidmətin şəraitindən, ixtisasdan, hərbi peşədən, hərbi rütbədən və hərbi xidmətdə olmağın müddətindən asılı olaraq hərbi qulluqçuların dövlət hesabına təminat xərcliyi (müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşları, habelə müvafiq icra hakimiyyəti orqanında hərbi xidmət vəzifəsində qulluq keçən dövlət qulluqçularına münasibətdə isə yalnız aylıq vəzifə və rütbə maaşı) almaq hüququ vardır.";

3.2. 7-ci hissəyə "hərbi qulluqçularından" sözlərindən sonra", habelə müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərindən, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarından, habelə müvafiq icra hakimiyyəti orqanında hərbi xidmət vəzifəsində qulluq keçən dövlət qulluqçularından" sözləri əlavə edilsin.

**Maddə 4.** "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106 (Cild I); Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 21-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci hissədə "3550" rəqəmləri "17000" rəqəmləri ilə əvəz edilsin;

4.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Milli Məclis sədrinin birinci müavini 16000 manat, Milli Məclis sədrinin müavini 15000 manat, Milli Məclisin komitə və komissiya sədri 13000 manat, Milli Məclisin komissiya və komitə sədrinin müavini 11500 manat, Milli Məclisin deputatı 9000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.";

4.3. üçüncü hissə ləğv edilsin.

**Maddə 5.** "Polis haqqında"Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 8, maddə 735, № 8, maddə 743) 35-ci maddəsinə aşağıdakı məzmunda III hissə əlavə edilsin:

"III. Bu maddənin I hissəsində polis əməkdaşları üçün nəzərdə tutulan təminatlar (vəzifə və xüsusi rütbə maaşları, habelə istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günləri və ümumxalq hüzn günü, gecə vaxtı və iş vaxtından artıq vaxtda görülən işə görə normativ hüquqi aktlara uyğun olaraq müəyyənləşdirilən əlavə haqlar istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.".

**Maddə 6.** Azərbaycan Respublikasının1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12 (Cild I); 2024, № 6 (I kitab), maddə 636, № 8, maddə 934,№ 12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 109-1-ci maddə əlavə edilsin:

"109-1. Bu Qanunun 93-cü (vəzifə, xüsusi rütbə maaşları və elmi dərəcəyə görə əlavə istisna olmaqla), 94-cü, 96-cı, 97-ci, 99-cu və 109-cu maddəsinin ikinci abzasında gömrük orqanlarının vəzifəli şəxslərinə nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.".

**Maddə 7.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 305-VIIQD nömrəli və 30 dekabr tarixli 331-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.1.19-cu maddəyə ikinci halda "dövlət qulluqçusunun" sözlərindən sonra "dövlət məvacibinin məbləğinin müəyyənləşdirilməsi," sözləri əlavə edilsin;

7.2. 8-ci maddə üzrə:

7.2.1. 8.1.2-ci maddəyə"Konstitusiyası," sözündən sonra "habelə" sözü, ikinci halda "qanunları" sözündən sonra "və ya Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi" sözləri, "Məclisi," sözündən sonra "Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, müvafiq icra hakimiyyəti orqanlarının aparatları" sözləri əlavə edilsin;

7.2.2. 8.1.3-cü maddədən "Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı," sözləri çıxarılsın və həmin maddəyə "Nümayəndəliyi" sözündən sonra ", müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri" sözləri əlavə edilsin;

7.3. 11-ci maddə üzrə:

7.3.1. 11.1.3.11-ci və 11.1.3.12-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"11.1.3.11. Azərbaycan Respublikası apellyasiya məhkəmələri, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərləri, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

11.1.3.12. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;";

7.3.2. 11.1.4.11-ci maddəyə "rəhbərləri" sözündən sonra "(bu Qanunun 11.1.3.11-ci, 11.1.4.17-ci və 11.1.5.5-ci maddələri nəzərə alınmaqla)" sözləri, "müavinləri" sözündən sonra ", həmin orqanların aparatlarında struktur bölmə (şöbə) rəhbərləri" sözləri əlavə edilsin;

7.3.3. 11.1.4.13-cü maddədən "müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən" sözləri çıxarılsın;

7.3.4. 11.1.4.14-cü maddədən "(bu Qanunun 11.1.3.12-ci maddəsi nəzərə alınmaqla)" sözləri çıxarılsın;

7.3.5. aşağıdakı məzmunda 11.1.4.16-cı və 11.1.4.17-ci maddələr əlavə edilsin:

"11.1.4.16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, müvafiq icra hakimiyyəti orqanları rəhbərlərinin müşavirləri, köməkçiləri;

11.1.4.17. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;";

7.3.6. 11.1.5.2-ci maddədə "rəhbəri və onun" sözləri "rəhbərinin" sözü ilə əvəz edilsin və həmin maddəyə "müavini" sözündən sonra "(bu Qanunun 11.1.5.5-ci və 11.1.5.9-cu maddələri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

7.3.7. 11.1.5.4-cü maddədən "(bu Qanunun 11.1.4.13-cü maddəsi nəzərə alınmaqla)" sözləri çıxarılsın;

7.3.8. 11.1.5.5-ci və 11.1.5.9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"11.1.5.5. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərləri və onların müavinləri, həmin orqanların rəhbərlərinin müşavirləri və köməkçiləri;";

"11.1.5.9. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində struktur bölmə (şöbə) rəhbərlərinin müavinləri;";

7.3.9. aşağıdakı məzmunda 11.1.5.12-ci maddə əlavə edilsin:

"11.1.5.12. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərləri;";

7.3.10. 11.1.6.2-ci maddə ləğv edilsin;

7.3.11. 11.1.6.4-cü maddəyə "müavini" sözündən sonra "(bu Qanunun 11.1.5.12-ci və 11.1.6.4-1-ci maddələri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

7.3.12. aşağıdakı məzmunda 11.1.6.4-1-ci maddə əlavə edilsin:

"11.1.6.4-1. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında struktur bölmə (şöbə) rəhbərlərinin müavinləri;";

7.3.13. 11.1.8.2-ci maddədən ikinci halda ", onların müavinləri" sözləri çıxarılsın;

7.4. 17.1-ci maddənin birinci abzasının ikinci cümləsi çıxarılsın;

7.5. 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 22. Dövlət qulluğunda qulluq stajı**

22.1. Dövlət qulluqçusunun dövlət qulluğunda qulluq stajı hesablanarkən aşağıdakı dövrlər nəzərə alınır:

22.1.1. dövlət qulluqçusunun tutduğu vəzifədə qulluq stajı;

22.1.2. bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq stajı;

22.1.3. dövlət qulluqçusu digər dövlət qulluğu vəzifəsinə keçirildikdə və qəbul edildikdə əvvəlki dövlət qulluğu vəzifəsindəki qulluq stajı;

22.1.4. dövlət qulluqçusunun əlavə təhsil müddəti;

22.1.5. məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş dövlət qulluqçusunun məcburi işburaxma dövrü;

22.1.6. dövlət qulluğu vəzifəsində staj və sınaq müddəti;

22.1.7. dövlət qulluğu vəzifəsinin və orta əməkhaqqının saxlanılması şərtilə dövlət qulluqçusunun dövlət qulluğundan ayrıldığı müddət;

22.1.8. əmək qabiliyyətinin müvəqqəti itirildiyi müddət;

22.1.9. ödənişli məzuniyyət dövrləri, o cümlədən uşağa qulluq etmək üçün qismən ödənişli sosial məzuniyyət müddəti;

22.1.10. müddətli həqiqi hərbi xidmətə çağırılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra bilavasitə yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçusunun müddətli həqiqi hərbi xidmətdə olduğu müddət.

22.2. Dövlət qulluqçusunun qulluq stajının hesablanması onun qulluq etdiyi dövlət orqanı tərəfindən həyata keçirilir.

22.3. Dövlət qulluqçusunun qulluq stajı müəyyənləşdirilərkən onun qulluq stajına bu Qanun qüvvəyə minənədək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında (o cümlədən Azərbaycan Respublikasının ərazisindən kənarda), habelə 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

22.4. Dövlət qulluğunda qulluq stajı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə və (və ya) Dövlət qulluqçularının reyestrinə əsasən, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü ilin iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.

22.5. Dövlət qulluqçusunun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illəri onun dövlət qulluğu stajına və dövlət qulluğu stajı onun bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilir.

22.6. Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınaraq, dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi qaydasını və şərtlərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

22.7. Bu Qanunun 22.1-ci və 22.3-cü maddələrinin tətbiqi zamanı yaranmış fikir ayrılığı Şura tərəfindən aradan qaldırılır.";

7.6. 22-1.2-ci maddə ləğv edilsin;

7.7. 24-cü maddə üzrə:

7.7.1. adında "mükafatlandırılması" sözü "həvəsləndirilməsi" sözü ilə əvəz edilsin;

7.7.2. 24.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"24.1. Dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə həvəsləndirmə tədbirləri həyata keçirilir.";

7.8. 30-1.12.1-ci maddə ləğv edilsin;

7.9. ikinci halda IV fəsil VII fəsil hesab edilsin və aşağıdakı məzmunda VI fəsil əlavə edilsin:

"VI f ə s i l

**Dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi**

**Maddə 33-1. Əməyin ödənilməsi sisteminin tətbiqi və idarə edilməsi**

33-1.1. Dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi rəqabətqabiliyyətlilik, mütənasiblik, motivasiya, çeviklik və uyğunlaşma amilləri nəzərə alınmaqla bu Qanun və əmək qanunvericiliyi ilə tənzimlənir.

33-1.2. Dövlət orqanları dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait, müəyyən edilmiş işçilərinin ümumi say həddi və struktur bölmələrin yaradılması üçün işçilərin say həddi çərçivəsində ştat cədvəlində struktur bölmələrin və struktur bölmələrdə işçilərin sayının müəyyənləşdirilməsində sərbəstdirlər.

33-1.3. Bu Qanunun 33-1.1-ci maddəsində "rəqabətqabiliyyətlilik" dedikdə dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin özəl sektorda analoji vəzifələrin əməkhaqqı səviyyələri ilə qulluq funksiyalarının mürəkkəbliyi və məsuliyyəti baxımından balanslaşdırılması, "mütənasiblik" dedikdə dövlət qulluqçularının dövlət məvacibinin dövlət orqanının kateqoriyasına, dövlət qulluğu vəzifəsinin təsnifatına, əməyin ödəniş səviyyəsinə, qulluq stajına və xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq müəyyən edilməsi, "motivasiya" dedikdə dövlət qulluqçusunun vəzifədə yüksəlişi ilə yanaşı tutduğu vəzifədə fərdi peşəkarlıq və yüksək səriştəlilik keyfiyyətlərinin artırılması ilə əlaqədar əməyinin ödənilməsi sistemi üzrə həvəsləndirilməsi, "çeviklik və uyğunlaşma" dedikdə dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin iqtisadiyyatın inkişaf səviyyəsinə uyğunlaşdırılmasının təmin edilməsi başa düşülür.

**Maddə 33-2. Dövlət məvacibi**

33-2.1. Dövlət qulluqçusunun məvacibinə daxildir:

33-2.1.1. aylıq vəzifə maaşı;

33-2.1.2. ixtisas dərəcəsinə görə əlavə haqq;

33-2.1.3. qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə ödənilən əlavə haqq;

33-2.1.4. əmək qanunvericiliyinə əsasən əmək şəraiti ilə əlaqədar dövlət qulluqçularına şamil edilən əlavələr (qulluq şəraitinin ağır və zərərliliyinə, iqlim şəraitinə və s.).

33-2.2. Dövlət qulluqçusunun aylıq vəzifə maaşı mütənasiblik amili nəzərə alınmaqla əməyinin ödəniş səviyyəsinə və pilləsinə uyğun olaraq müəyyən edilir.

33-2.3. Dövlət qulluqçularına dövlət büdcəsindən ödənilən dövlət məvacibi yalnız bu Qanunla müəyyən edilir.

33-2.4. Bu Qanunun 33-2.1.4-cü maddəsində nəzərdə tutulan əlavələr müvafiq qaydada hesablanan məbləğin 50 faizi məbləğində tətbiq edilir.

**Qeyd:** Dövlət qulluğunun inzibati vəzifəsinə qəbul həyata keçirilənədək bu vəzifədə müvəqqəti işləyən, dövlət qulluqçusu olmayan işçinin aylıq vəzifə maaşı minimum əməkhaqqından aşağı olmamaqla həmin vəzifənin 1-ci ödəniş pilləsi üzrə vəzifə maaşının 50 faizi məbləğində müəyyən edilir.

**Maddə 33-3. Əməyin ödəniş səviyyələri və pillələri**

33-3.1. Dövlət qulluqçularının baza aylıq vəzifə maaşları (birinci ödəniş pilləsi) şaquli istiqamətdə dövlət orqanlarının kateqoriyasından, vəzifələrin təsnifatından, səlahiyyət həcmindən və iyerarxiyasından asılı olaraq inzibati vəzifələrin 35 və yardımçı vəzifələrin 17 ödəniş səviyyələri üzrə müəyyən edilir.

33-3.2. Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğindən başlayaraq ödəniş səviyyələri üzrə baza aylıq vəzifə maaşları hər növbəti səviyyə üzrə əvvəlki baza aylıq vəzifə maaşına artım faizləri tətbiq edilməklə hesablanır.

33-3.3. Dövlət qulluğunun inzibati vəzifələri üçün müəyyən edilən minimum vəzifə maaşı yardımçı vəzifələrin ən yüksək səviyyə üzrə baza aylıq vəzifə maaşından az ola bilməz.

33-3.4. Dövlət qulluğu stajından və xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticəsindən və ya bu Qanunla müəyyən edilən hallarda yalnız dövlət qulluğu stajından asılı olaraq dövlət qulluqçusunun aylıq vəzifə maaşı üfüqi istiqamətdə 1-7-ci pillələr üzrə hər növbəti pillə üzrə baza aylıq vəzifə maaşına artım faizi tətbiq edilməklə müəyyən edilir.

33-3.5. Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğləri, əməyin ödəniş səviyyələri üzrə vəzifələr, səviyyə və pillələr üzrə artım faizləri və aylıq vəzifə maaşlarının məbləğləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 33-4. Aylıq vəzifə maaşının müəyyən edilməsi şərtləri**

33-4.1. Dövlət qulluqçusunun qulluq keçdiyi tarixə aylıq vəzifə maaşının məbləği, eləcə də dövlət məvacibinə daxil edilən digər ödənişlər bu Qanuna və əmək qanunvericiliyinə əsasən müəyyən edilərək dövlət orqanının rəhbərinin əmri (sərəncamı) ilə rəsmiləşdirilir.

33-4.2. Dövlət qulluğuna staj və sınaq müddətinə qəbul edilmiş şəxslərin və ilk dəfə daimi dövlət qulluğuna qəbul edilən dövlət qulluqçularının aylıq vəzifə maaşları təyin edildiyi vəzifəyə müvafiq olaraq 1-ci ödəniş pilləsi üzrə müəyyən edilir.

| Qulluq stajı (il) | Əməyin ödəniş pilləsi |
|---|---|
| 1 ilədək | 1-ci |
| 1 ildən 5 ilədək | 2-ci |
| 5 ildən 10 ilədək | 3-cü |
| 10 ildən 15 ilədək | 4-cü |
| 15 ildən 20 ilədək | 5-ci |
| 20 ildən 25 ilədək | 6-cı |
| 25 ildən yuxarı | 7-ci |

33-4.3. Ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali-üçüncü təsnifatları üzrə inzibati vəzifə tutan dövlət qulluqçusunun və bütün təsnifatlar üzrə yardımçı vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi dövlət qulluğunda qulluq stajının müddətindən asılı olaraq aşağıdakı kimi müəyyən edilir:

33-4.4. Bu Qanunun 33-4.3-cü maddəsində göstərilən inzibati vəzifələr istisna olmaqla, digər inzibati vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi qulluq stajına və dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə, habelə aşağıdakı hər hala əsasən 2-ci pillədən başlayaraq tutduğu pillədən bir pillə yuxarı müəyyən edilir:

33-4.4.1. qulluq stajına görə:

33-4.4.1.1. 1 ildən 5 ilədək;

33-4.4.1.2. 5 ildən 15 ilədək;

33-4.4.1.3. 15 ildən yuxarı;

33-4.4.2. qiymətləndirmənin nəticəsinə görə:

33-4.4.2.1. "əla" qiymətləndirildikdə;

33-4.4.2.2. iki il ərzində ardıcıl "yaxşı" qiymətləndirildikdə.

33-4.5. Xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularının qulluq etdiyi dövlət orqanında eyni vəzifədə xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə qulluq stajına görə tutduğu pillədən daha yüksək pillə tutmasına 3 dəfə yol verilir. Bundan sonra dövlət qulluqçusunun həmin vəzifədə əməyinin ödəniş pilləsinin artırılmasına qiymətləndirmənin nəticələrinə görə əvvəlki yüksəliş pillələri nəzərə alınmaqla yalnız staja görə yol verilir.

33-4.6. Xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə əməyinin ödəniş pilləsi növbəti il yanvarın 20-dək müəyyən edilir və fevralın 1-dən dövlət orqanının ştat cədvəlində nəzərə alınır.

33-4.7. Dövlət orqanı üzrə qiymətləndirmə aparılan tarixə xidməti fəaliyyəti "əla" və ya "yaxşı" qiymətləndirilən inzibati vəzifə tutan dövlət qulluqçularının sayı hər bir qiymət üzrə həmin dövlət orqanı üzrə inzibati vəzifədə qiymətləndirilməsi aparılan dövlət qulluqçularının ümumi sayının 10 faizdən artıq olmamalıdır.

33-4.8. Dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanında başqa dövlət qulluğu vəzifəsinə keçməsi və ya digər dövlət orqanında dövlət qulluğuna qəbul edilməsi ilə əlaqədar əməyinin ödəniş pilləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsində müəyyən edilmiş qaydada əmək müqaviləsi və ya ona edilən dəyişikliklər qüvvəyə mindiyi gündən müəyyən edilir və əməyin ödəniş pilləsinə uyğun olaraq dövlət məvacibi həmin gündən hesablanır.

33-4.9. Dövlət qulluqçusu digər dövlət orqanında və ya qulluq keçdiyi dövlət orqanında daha yüksək ödəniş səviyyəsi üzrə dövlət qulluğu vəzifəsinə keçdikdə, əməyinin ödəniş pilləsi əvvəlki vəzifə maaşına ən yaxın yüksək vəzifə maaşına uyğun pillə üzrə, lakin dövlət qulluğu stajına görə müəyyən edilən pillədən aşağı olmayaraq müəyyən edilir. Dövlət qulluğuna xitam verildikdən sonra dövlət orqanında daha yüksək ödəniş səviyyəsi üzrə dövlət qulluğu vəzifəsinə təyin edilən dövlət qulluqçusuna bu maddədə müəyyən edilən qayda tətbiq edilmir, həmin dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi yalnız dövlət qulluğu stajına uyğun olaraq müəyyən edilir.

33-4.10. Dövlət qulluqçusu eyni təsnifatdan və ödəniş səviyyəsindən olan digər dövlət qulluğu vəzifəsinə təyin edildikdə əməyinin ödəniş pilləsi dəyişmir, aylıq vəzifə maaşı yeni dövlət qulluğu vəzifəsinə və əvvəlki ödəniş pilləsinə uyğun olaraq vəzifəyə təyin edildiyi tarixdən müəyyən edilir.

33-4.11. Eyni təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan vəzifəyə keçirilməsi, daha aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi intizam tənbeh tədbirlərindən biri tətbiq edilmiş dövlət qulluqçusu başqa dövlət qulluğu vəzifəsinə keçdikdə əməyinin ödəniş pilləsi dəyişmir və aylıq vəzifə maaşı keçirildiyi dövlət qulluğu vəzifəsinə uyğun olaraq müəyyən edilir.

33-4.12. Xidməti fəaliyyətinin qiymətləndirilməsi aparılan inzibati vəzifə tutan dövlət qulluqçusunun intizam tənbehinin qüvvədə olduğu dövrdə əməyinin ödəniş pilləsi xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə artırılmır. İntizam tənbehi götürüldüyü və ya qüvvədən düşdüyü vaxtdan həmin inzibati vəzifə tutan dövlət qulluqçusunun əməyinin ödəniş pilləsi xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi nəzərə alınmaqla müəyyən edilir.

33-4.13. Dövlət qulluğuna xitam verilərkən sonuncu qiymətləndirilməsi "qeyri-kafi" olmuş dövlət qulluqçusu digər dövlət orqanında dövlət qulluğuna qəbul edildikdə əməyinin ödəniş pilləsi qulluq stajına görə müəyyən edilir.

33-4.14. Dövlət qulluqçularının qulluq stajına və xidməti fəaliyyətinin qiymətləndirilməsinə görə aylıq vəzifə maaşının artırılması bütün hallarda dövlət orqanının rəhbərinin əmri (sərəncamı) ilə rəsmiləşdirilir və əmək müqaviləsində göstərilir.

33-4.15. Bu Qanuna uyğun olaraq müəyyən edilən vəzifə maaşları əsasında əməkhaqqı fondunun formalaşdırılması məqsədilə dövlət orqanlarının saxlanılması xərclərinin tərkibində hər il dövlət büdcəsində vəzifə maaşlarının 1-ci ödəniş pilləsi üzrə hesablanan illik əməkhaqqı fondu və onun 7,5 faizi miqdarında əlavə vəsait nəzərdə tutulur.

**Qeyd:** Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri, Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə münasibətdə onların əmək stajı, hərbi qurumlarda, hüquq-mühafizə və prokurorluq orqanlarında ali hərbi və ali xüsusi rütbələr nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini, Naxçıvan Muxtar Respublikasında hərbi qurumlarda, hüquq-mühafizə və prokurorluq orqanlarında ali hərbi və ali xüsusi rütbələr nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini və diplomatik orqanın diplomatik rütbə nəzərdə tutulan rəhbər və onun müavinləri vəzifələrini tutan şəxslərə münasibətdə isə onların xidmət illəri nəzərə alınmaqla əməyinin ödəniş pilləsi bu Qanunun 33-4.3-cü maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qeyd edilən vəzifələr üzrə bu Qanunun 33-2.1.4-cü maddəsində nəzərdə tutulan əlavələr müvafiq qaydada hesablanan məbləğin 50 faizi məbləğində tətbiq edilir.".

*Ardı 4-cü səh.*

## Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

**Maddə 8.** "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337; 2025, № 8, maddə 734) aşağıdakı məzmunda 21.6-cı maddə əlavə edilsin:

"21.6. Bu Qanunun 21.1-ci (vəzifə və rütbə maaşları istisna olmaqla), 21.2-1-ci, 21.3-cü və 21.4-cü maddələrində prokurorluq işçilərinə nəzərdə tutulan təminatlar Baş prokuror və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.".

**Maddə 9.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453 (Cild I); 2024, № 8, maddə 934, № 12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 100-1-ci maddə əlavə edilsin:

"100-1. Bu Qanunun 88-ci maddəsinin ikinci abzasında, 91-ci maddəsində (vəzifə və xüsusi rütbə maaşları istisna olmaqla) və 97-ci maddəsinin ikinci abzasında daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.".

**Maddə 10.** "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında"Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601 (Cild I); 2025, № 1, maddə 5) aşağıdakı məzmunda 20.10-1-ci maddə əlavə edilsin:

"20.10-1. Bu Qanunun 20.2-ci (vəzifə və rütbə maaşları istisna olmaqla), 20.4-cü, 20.6-cı, 20.7-ci (pulsuz dövlət tibb xidməti istisna olmaqla) və 20.10-cu maddələrində kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşları üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanlarının rəhbərləri və onun müavinlərinə, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın rəhbəri, müavini və əməkdaşlarına şamil edilmir.".

**Maddə 11.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337; 2025, № 7, maddə 606, № 7, maddə 617, № 8, maddə 743) aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 23.12-ci və 25.7-ci maddələr əlavə edilsin:

"23.12. Bu Qanunun 23.2-ci (pulsuz dövlət tibb xidməti istisna olmaqla), 23.3-cü və 23.7-ci maddələrində ədliyyə orqanlarının işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.";

"25.7. Bu Qanunun 25.1-ci (vəzifə, xüsusi rütbə maaşları və elmi dərəcəyə görə əlavə istisna olmaqla) 25.4 - 25.6-cı və 25-1-ci maddələrində ədliyyə orqanlarının işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.";

11.2. 37.1-ci maddə üzrə:

11.2.1. birinci cümlədə "xərclərinə" sözü "xərcliyinə" sözü ilə əvəz edilsin;

11.2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının rəhbərinin müavinin təminat xərcliyinə yalnız vəzifə maaşı və xüsusi rütbəyə görə əlavə daxildir.".

**Maddə 12.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972 (Cild I); 2024, №12 (II kitab), maddə 1337) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 90-2-ci maddə əlavə edilsin:

"90-2. Bu Qanunun 86-cı (vəzifə və xüsusi rütbə maaşları istisna olmaqla), 89-cu və 90-cı maddələrində miqrasiya orqanları işçiləri üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.".

**Maddə 13.** "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 714 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337) aşağıdakı məzmunda 23.16-cı və 25.11-ci maddələr əlavə edilsin:

"23.16. Bu Qanunun 23.3-cü və 23.4-cü maddələrində fövqəladə hallar orqanları əməkdaşlarına nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.";

"25.11. Bu Qanunun 25.1-ci (vəzifə və xüsusi rütbəyə görə maaşlar, elmi dərəcəyə və elmi ada görə əlavə istisna olmaqla), 25.6-cı, 25.7-ci və 25.9-cu maddələrində fövqəladə hallar orqanları əməkdaşları üçün nəzərdə tutulan təminatlar müvafiq icra hakimiyyəti orqanının rəhbəri və onun müavinlərinə şamil edilmir.".

**Maddə 14.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820 (Cild I); 2024, № 12 (I kitab), maddə 1281) 34-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

14.1. 34.1-ci maddədə "3150" rəqəmləri "13000" rəqəmləri ilə əvəz edilsin;

14.2. 34.2-ci maddədə "2800" rəqəmləri "11500" rəqəmləri ilə əvəz edilsin;

14.3. 34.3-cü maddədə "2625" rəqəmləri "9000" rəqəmləri ilə əvəz edilsin;

14.4. 34.4-cü maddə ləğv edilsin.

**Maddə 15.** "Media haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I); 2024, № 5 (I kitab), maddələr 488, 494, № 7, maddə 775; 2025, № 2, maddə 100, № 4 (I kitab), maddə 318, № 8, maddə 741) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 49.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"49.1. Şura sədri 11500 manat məbləğində, Şuranın digər üzvləri isə 9000 manat məbləğində aylıq vəzifə maaşı alırlar.";

15.2. 49.2-ci maddə ləğv edilsin.

**Maddə 16.** "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 386 (Cild I) ləğv edilsin.

**Maddə 17. Keçid müddəalar**

17.1. Bu Qanun qüvvəyə minənədək bu Qanunun 4-cü, 14-cü və 15-ci maddələrində nəzərdə tutulmuş şəxslərə ödənilmiş vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər onların bu Qanunla müəyyən edilən aylıq vəzifə maaşına daxil edilir.

17.2. Bu Qanun qüvvəyə minənədək dövlət qulluqçularına dövlət məvacibinin tərkibi kimi ödənilmiş vəzifə maaşı, mükafat, əlavələr və digər ödənişlər, bu Qanunla aylıq vəzifə maaşına daxil edilməklə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun 33-2.1-ci maddəsi ilə yeni dövlət məvacibi müəyyən edilir.

17.3. Bu Qanunun tətbiqi ilə əlaqədar dövlət qulluqçusunun dövlət büdcəsindən ödənilən dövlət məvacibində, eləcə də Azərbaycan Respublikası Prezidenti Administrasiyasında, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibinin xidmətində hərbi xidmət və xüsusi növ dövlət qulluqçusu vəzifəsində qulluq keçən dövlət qulluqçularının əvvəlki dövlət məvacibi və ya pul təminatı (2026-cı il yanvarın 1-dən əvvəlki 12 təqvim ayı və ya 12 təqvim ayından az qulluq keçdikdə faktiki qulluq keçdiyi tam təqvim ayları üzrə aldığı ödənişlərin cəmlənmiş məbləği müvafiq olaraq 12-yə və ya faktiki qulluq keçdiyi tam təqvim aylarına bölünməklə müəyyən edilən) ilə müqayisədə hazırkı dövlət məvacibi və ya pul təminatında (qanunla müəyyən edilmiş vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər çıxılmaqla) azalma baş verərsə həmin dövlət qulluqçularına dövlət məvacibi və ya pul təminatı arasındakı fərq növbəti əməkhaqqı artımları nəticəsində aradan qalxanadək ödənilir.

17.4. Bu Qanuna əsasən dövlət orqanının kateqoriyasının və inzibati vəzifənin təsnifatının dəyişməsi ilə əlaqədar yuxarı təsnifata aid edilən vəzifədə dövlət qulluğunu davam etdirən dövlət qulluqçuları (inzibati vəzifələrin tutulmasının ümumi şərtlərinə uyğun gəlməyən dövlət qulluqçuları istisna olmaqla) müsabiqə və müsahibəyə cəlb edilmir.

17.5. Bu Qanun qüvvəyə minənədək həyata keçirilmiş dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi nəticələri əməyin ödəniş pilləsinin müəyyən edilməsində nəzərə alınmır.

**Maddə 18.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 51-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 51-1.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 51-1.2-ci maddəsinə uyğun olaraq, cinayət mühakimə icraatı zamanı prosessual sənədlərin elektron formada tərtib edilməsi, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi qaydasına dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. üçüncü abzasa "Məcəlləsinin" sözündən sonra "51-1.2-ci maddəsində," sözləri əlavə edilsin;

4.2. dördüncü-iyirmialtıncı abzaslar müvafiq olaraq beşinci-iyirmi yeddinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin51-1.2-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

## Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbərlərinin və onların müavinlərinin (Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla) beşinci ödəniş pilləsi üzrə aylıq vəzifə maaşları aşağıdakı məbləğlərdə müəyyən edilsin:

| | |
|---|---|
| 1.1. Baş nazir | 17160 manat |
| 1.2. Baş nazirin birinci müavini | 15950 manat |
| 1.3. Baş nazirin müavini | 14850 manat |
| 1.4. nazir | 13750 manat |
| 1.5. digər mərkəzi icra hakimiyyəti orqanının və mərkəzi icra hakimiyyəti orqanına bərabər tutulan orqanın rəhbəri | 13200 manat |
| 1.6. nazirin birinci müavini | 12650 manat |
| 1.7. nazirin müavini, digər mərkəzi icra hakimiyyəti orqanının və mərkəzi icra hakimiyyəti orqanına bərabər tutulan orqanın rəhbərinin birinci müavini | 12100 manat |
| 1.8. digər mərkəzi icra hakimiyyəti orqanının və mərkəzi icra hakimiyyəti orqanına bərabər tutulan orqanın rəhbərinin müavini | 11550 manat |

2. Yerli icra hakimiyyəti başçılarının aylıq vəzifə maaşları beşinci ödəniş pilləsi üzrə aşağıdakı məbləğlərdə müəyyən edilsin:

| | |
|---|---|
| 2.1. Bakı şəhəri | 13200 manat |
| 2.2. Gəncə və Sumqayıt şəhərləri | 9900 manat |
| 2.3. digər şəhər, rayon və şəhər rayonu üzrə | 8800 manat. |

3. Müəyyən edilsin ki:

3.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.3-cü maddəsi nəzərə alınmaqla, bu Fərmanın 1-ci və 2-ci hissələrində göstərilən vəzifələr üzrə baza aylıq vəzifə maaşı (birinci ödəniş pilləsi) beşinci ödəniş pilləsi üzrə aylıq vəzifə maaşı 1,1 əmsalına bölünməklə, digər ödəniş pillələri üzrə aylıq vəzifə maaşı baza aylıq vəzifə maaşına münasibətdə hər pillə üzrə müvafiq olaraq 2,5 faiz artım tətbiq edilməklə müəyyən edilir və tam ədədə (sonuncu rəqəmi "0" və ya "5" olmaqla) yuvarlaqlaşdırılır;

3.2. bu Fərman qüvvəyə minənədək bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş şəxslərə ödənilən vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər bu Fərmanla müəyyən edilən aylıq vəzifə maaşına daxil edilir.

4. Bu Fərmana uyğun olaraq müəyyən edilən vəzifə maaşları əsasında əməkhaqqı fondunun formalaşdırılması məqsədilə dövlət orqanlarının saxlanılması xərclərinin tərkibində hər il dövlət büdcəsində vəzifə maaşlarının birinci ödəniş pilləsi üzrə hesablanan illik əməkhaqqı fondu və onun 10 faizi miqdarında əlavə vəsait nəzərdə tutulsun.

5. "Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması və "Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 348 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1609 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 197 (Cild I); 2024, № 7, maddə 796) 1 - 4-cü hissələri ləğv edilsin.

6. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (bundan sonra - Agentlik) və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin mükafatlandırılması məqsədilə 26.600.000 (iyirmi altı milyon altı yüz min) manat məbləğində vəsait hər il növbəti il üçün təsdiq olunan dövlət büdcəsində nəzərdə tutulur.

2. Agentlik:

2.1. bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq tələb olunan vəsaitin növbəti ilin dövlət büdcəsində nəzərdə tutulması üçün təkliflərini hər il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş vəsaitdən istifadə qaydasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 12 (II kitab), maddə 1369; 2025, № 12 (I kitab), maddə 1154; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli və 16 yanvar tarixli 584 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.4-cü bəndinin birinci cümləsində "dörd" sözü "beş" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2015-ci il martın 25-də Santiaqo-de-Kompostela şəhərində imzalanmış "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası" Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

# "Şəxslərin dövlətlərarası axtarışı haqqında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin 2010-cu il 10 dekabr tarixli Müqaviləsində düzəlişlər edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il oktyabrın 8-də Moskva şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərtlə imzalanmış "Şəxslərin dövlətlərarası axtarışı haqqında Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin 2010-cu il 10 dekabr tarixli Müqaviləsində düzəlişlər edilməsi barədə Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin əməkhaqqı sisteminin təkmilləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin əməkhaqqı sisteminin optimallaşdırılması məqsədilə **qərara alıram:**

1. Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin (bundan sonra - publik hüquqi şəxslər) işçilərinin aylıq vəzifə maaşlarının məbləğinin yuxarı həddi aşağıdakı qaydada müəyyən edilsin:

1.1. tabeliyi olmayan publik hüquqi şəxslərdə nəzərdə tutulmuş vəzifələrə münasibətdə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.3-cü maddəsinə uyğun olaraq müəyyən edilmiş digər mərkəzi icra hakimiyyəti orqanlarında analoji (onlara bərabər tutulan) vəzifələr üzrə baza aylıq vəzifə maaşının (birinci ödəniş pilləsi) 90 faizi həcmində;

1.2. dövlət orqanlarının və bu Fərmanın 1.1-ci bəndində göstərilən publik hüquqi şəxslərin tabeliyində yaradılan publik hüquqi şəxslərdə nəzərdə tutulmuş vəzifələrə münasibətdə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.4-cü maddəsinə uyğun olaraq müəyyən edilmiş digər mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərində analoji (onlara bərabər tutulan) vəzifələr üzrə baza aylıq vəzifə maaşının (birinci ödəniş pilləsi) 90 faizi həcmində;

1.3. bu Fərmanın 1.2-ci bəndində göstərilən publik hüquqi şəxslərin tabeliyində olan publik hüquqi şəxslərdə nəzərdə tutulmuş vəzifələrə (rəhbər və müavin vəzifələri istisna olmaqla) münasibətdə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.6-cı maddəsinə uyğun olaraq müəyyən edilmiş digər mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin yerli bölmələrində analoji (onlara bərabər tutulan) vəzifələr üzrə baza aylıq vəzifə maaşının (birinci ödəniş pilləsi) 90 faizi həcmində.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.2.1. bu Fərmanın 1.3-cü bəndində nəzərdə tutulmuş publik hüquqi şəxslərin rəhbəri və rəhbərinin müavini vəzifələri üçün aylıq əməkhaqqı məbləğini;

2.1.2.2. bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq publik hüquqi şəxslərdə mövcud olan vəzifələrin Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda nəzərdə tutulmuş dövlət qulluğu vəzifələrinə uyğunlaşdırılması siyahısını;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Publik hüquqi şəxslər:

3.1. altı ay müddətində "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, işçilərinin aylıq vəzifə maaşlarının məbləğinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş aylıq vəzifə maaşlarının yuxarı həddi çərçivəsində normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada müəyyən edilməsini təmin etsinlər;

3.2. strukturları, əməyin ödənişi fondu, işçilərinin say həddi və onların əməkhaqları barədə məlumatları Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılmış publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nın 3.2-ci bəndində nəzərdə tutulmuş hesabatlarla birlikdə təqdim etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Əhalinin icbari tibbi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə icbari tibbi sığortanın tətbiqi sahəsində islahatların davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin əhalinin icbari tibbi sığortası sahəsində səlahiyyətləri (bu Fərmanın 3.3-cü bəndi nəzərə alınmaqla) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilsin.

2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxs (bundan sonra - Agentlik) yaradılsın.

3. Müəyyən edilsin ki:

3.1. Agentlik Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqi, xidmətlər zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitin icbari tibbi sığorta fondunda cəmləşdirilməsi və həmin vəsaitin idarə olunması, icbari tibbi sığorta üzrə dövlət adından tibbi xidmətlərin mərkəzləşdirilmiş alıcısı və xərclərin ödənilməsi funksiyalarını həyata keçirir, habelə əlilliyin müəyyən edilməsi və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsi sahələrində fəaliyyət göstərir;

3.2. Agentlik İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin (bundan sonra - İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi publik hüquqi şəxsin (bundan sonra - Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi) hüquqi varisidir, onların hüquq və öhdəlikləri, habelə əmlakı (bu Fərmanın 3.3-cü və 3.4-cü bəndləri nəzərə alınmaqla) Agentliyə keçir;

3.3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sığortaolunanların dərman və tibb vasitələri ilə təmin edilməsi ilə bağlı hüquq və öhdəlikləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə keçir;

3.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əlilliyi olan şəxslərə reabilitasiya xidmətlərinin göstərilməsi ilə bağlı hüquq və öhdəlikləri, habelə tabeliyindəki reabilitasiya müəssisələri bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə (bundan sonra - Sosial Xidmətlər Agentliyi) keçir;

3.5. Agentliyin nizamnamə fondu bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq ona keçən əmlak hesabına formalaşır;

3.6. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 5 (beş) üzvdən - sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti yaradılır;

3.7. Agentliyin fəaliyyəti dövlət büdcəsinin, icbari tibbi sığorta fondunun vəsaiti və nizamnaməsində müəyyən edilən digər mənbələr hesabına maliyyələşdirilir.

4. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. yenidən təşkil və ləğv edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

5.1.1. bu Fərmanın 1-3-cü hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi;

5.1.2. Agentliyin nizamnaməsinin layihəsi, o cümlədən nizamnamə fondunun miqdarı;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək:

6.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu Fərmanın 7.1-ci bəndi nəzərə alınmaqla öz fəaliyyətini davam etdirsinlər;

6.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin idarə olunması bu Fərmanın 7.1-ci bəndinə uyğun olaraq yaradılan komissiya tərəfindən həyata keçirilsin.

7. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

7.1. bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, həmin hissədə nəzərdə tutulan publik hüquqi şəxslərin təhvil-təslim işlərinin təşkili və Agentlik fəaliyyətə başlayanadək idarə edilməsi üçün rəhbəri əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini olmaqla komissiya yaradılmasını təmin etsin;

7.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin balansında olan əmlakın (bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla) Agentliyin balansına verilməsi ilə bağlı üç ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin;

7.3. bu Fərmanın 3.4-cü bəndinə uyğun olaraq, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyindəki reabilitasiya müəssisələrinin Sosial Xidmətlər Agentliyinin tabeliyinə verilməsini üç ay müddətində təmin etsin;

7.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin dövlət qeydiyyatına alınması ilə bağlı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş zəruri tədbirləri həyata keçirsin;

7.5. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə aylıq vəzifə maaşının minimum məbləğləri, əməyin ödəniş səviyyələri üzrə vəzifələr, səviyyə və pillələr üzrə artım faizləri və aylıq vəzifə maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-3.5-ci maddəsinə əsasən **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət orqanlarında qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği inzibati vəzifələr üçün 1170 manat, yardımçı vəzifələr üçün 760 manat müəyyən edilsin.

2. Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri təsdiq edilsin *(əlavə olunur).*

3. Dövlət qulluqçularının əməyinin ödəniş səviyyələri və pillələri üzrə artım faizləri təsdiq edilsin *(əlavə olunur).*

4. Dövlət qulluqçularının əməyinin ödəniş səviyyələri və pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği təsdiq edilsin *(əlavə olunur).*

5. Bu Fərmanın 3-cü və 4-cü hissələri ilə müəyyən edilmiş birinci - üçüncü ödəniş səviyyələri üzrə inzibati vəzifələrin və dördüncü - on birinci ödəniş səviyyələri üzrə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında inzibati vəzifələr üzrə baza aylıq vəzifə maaşları (birinci ödəniş pilləsi) qulluq şəraitinin xüsusiyyətləri nəzərə alınmaqla, 10 faiz yüksək məbləğdə müəyyən edilsin.

6. Müəyyən edilsin ki, bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələrində göstərilməyən və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda nəzərdə tutulmayan, dövlət qulluğunun xüsusi növünə aid olan dövlət orqanlarında dövlət qulluğu vəzifələri üzrə əməyin ödəniş səviyyələri, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla, həmin vəzifələrin aid olduğu dövlət orqanlarının rəhbərləri tərəfindən analoji ödəniş səviyyələrinə uyğunlaşdırılır.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanda nəzərdə tutulan əməkhaqlarının ödənilməsini 2026-cı ildə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsait, eləcə də dövlət orqanlarının saxlanılması xərclərində büdcə xərclərinin iqtisadi təsnifatının "Əməkhaqqı" köməkçi bölməsi dairəsində xərc paraqrafları arasında dəyişikliklər etməklə həyata keçirsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

9. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin əməkhaqlarının artırılması və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" 2004-cü il 10 avqust tarixli 351 nömrəli, "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 1 mart tarixli 1613 nömrəli Fərmanında və "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli 1054 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bəzi dövlət orqanlarının rəhbər işçilərinin əməkhaqlarının artırılması məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin əməkhaqlarının artırılması və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" 2004-cü il 10 avqust tarixli 351 nömrəli, "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1613 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 201 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissə üzrə:

1.1.1. 1.1-ci bənddə "3060" rəqəmləri "12000" rəqəmləri ilə əvəz edilsin;

1.1.2. 1.2-ci bənddə "2650" rəqəmləri "11000" rəqəmləri ilə əvəz edilsin;

1.1.3. 1.3-cü bənddə "2450" rəqəmləri "10000" rəqəmləri ilə əvəz edilsin;

1.1.4. 1.4-cü bənddə "2250" rəqəmləri "9000" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə ləğv edilsin.

2. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 8 oktyabr tarixli 1054 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 612 (CildI) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissə üzrə:

2.1.1. "3260 manat" sözləri "13750 manat, Baş prokurorun birinci müavininin aylıq vəzifə maaşı 12650 manat, Baş prokurorun müavininin aylıq vəzifə maaşı 12100 manat" sözləri ilə əvəz edilsin;

2.1.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qeyd olunan vəzifə maaşları "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.3-cü maddəsinə uyğun olaraq əməyin beşinci ödəniş pilləsinə əsasən müəyyən edilmişdir.";

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Baş prokurora və onun müavinlərinə ali xüsusi və ali hərbi rütbələr nəzərdə tutulan vəzifələr üzrə normativ hüquqi aktlarda nəzərdə tutulmuş vəzifə maaşından, habelə pul təminatından (əməkhaqqından) hesablanan üstəlik əlavələr və birdəfəlik ödənişlər şamil edilmir. Baş prokurora və onun müavinlərinə, ali xüsusi və ali hərbi rütbələr nəzərdə tutulan vəzifələr üzrə xidmət ilindən asılı olaraq,"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33-4.3-cü maddəsi ilə müəyyən edilmiş əməyin ödəniş pillələri üzrə baza aylıq vəzifə maaşı (birinci ödəniş pilləsi) beşinci ödəniş pilləsi üzrə aylıq vəzifə maaşı 1,1 əmsala bölünməklə, digər ödəniş pillələri üzrə aylıq vəzifə maaşı baza aylıq vəzifə maaşına münasibətdə hər pillə üzrə müvafiq olaraq 2,5 faiz artım tətbiq edilməklə müəyyən edilsin və tam ədədə (sonuncu rəqəmi "0" və ya "5" olmaqla) yuvarlaqlaşdırılsın.".

3. Müəyyən edilsin ki, bu Fərman qüvvəyə minənədək bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş şəxslərə ödənilmiş vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər onların bu Fərmanla müəyyən edilən aylıq vəzifə maaşına daxil edilir.

4. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri

**1. İnzibati vəzifələrin baza aylıq vəzifə maaşları aşağıdakı ödəniş səviyyələri üzrə müəyyən edilir:**

**1.1. birinci ödəniş səviyyəsi:**

1.35.2. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində məsləhətçi;

1.35.3. yerli icra hakimiyyəti başçılarının şəhər və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində məsləhətçi (mühəndis);

1.35.4. yerli icra hakimiyyəti başçılarının qəsəbə və ya kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərində məsləhətçi.

**2. Yardımçı vəzifələrin baza aylıq vəzifə maaşları aşağıdakı ödəniş səviyyələri üzrə müəyyən edilir:**

**2.1. birinci ödəniş səviyyəsi:**

2.1.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətində baş mütəxəssis (böyük inspektor, korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.);

2.1.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda baş mütəxəssis (böyük inspektor, korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.);

**2.2. ikinci ödəniş səviyyəsi:**

2.2.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətində böyük mütəxəssis (makinaçı, operator, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.);

2.2.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda böyük mütəxəssis (makinaçı, operator, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.);

2.2.3.Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında və İşlər İdarəsində baş mütəxəssis (böyük inspektor, korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.);

2.2.4. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında və İşlər İdarəsində, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatında və İşlər idarəsində, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında və İşlər İdarəsində baş mütəxəssis (böyük inspektor, korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.);

**2.3. üçüncü ödəniş səviyyəsi:**

2.3.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətində aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor, baş dispetçer və s.);

2.3.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor, baş dispetçer və s.);

2.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında və İşlər İdarəsində böyük mütəxəssis (makinaçı, operator, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.);

2.3.4. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında və İşlər İdarəsində, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatında və İşlər idarəsində, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında və İşlər İdarəsində böyük mütəxəssis (makinaçı, operator, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.);

**2.4. dördüncü ödəniş səviyyəsi:**

2.4.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətində mütəxəssis (kuryer, dispetçer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.4.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda mütəxəssis (kuryer, dispetçer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.4.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında və İşlər İdarəsində aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor, baş dispetçer və s.);

2.4.4. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında və İşlər İdarəsində, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatında və İşlər idarəsində, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında və İşlər İdarəsində aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor, baş dispetçer və s.);

**2.5. beşinci ödəniş səviyyəsi:**

2.5.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında və İşlər İdarəsində mütəxəssis (kuryer, dispetçer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.5.2. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında və İşlər İdarəsində, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatında və İşlər idarəsində, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında və İşlər İdarəsində mütəxəssis (kuryer, dispetçer, ixtisas dərəcəsi olan fəhlə və s.);

**2.6. altıncı ödəniş səviyyəsi:**

2.6.1. Azərbaycan Respublikası Hesablama Palatasının Aparatında, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatında, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) Aparatında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda baş mütəxəssis (böyük inspektor, korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.);

2.6.2.Azərbaycan Respublikası nazirliklərinin aparatlarında baş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü və s.);

2.6.3.Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında baş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü və s.);

**2.7. yeddinci ödəniş səviyyəsi:**

2.7.1.Azərbaycan Respublikası Hesablama Palatasının Aparatında, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatında, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) Aparatında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda böyük mütəxəssis (makinaçı, operator, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.);

2.7.2. Azərbaycan Respublikası nazirliklərinin aparatlarında böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, komendant, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, makinaçı, operator və s.);

2.7.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, komendant, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, makinaçı, operator və s.);

**2.8. səkkizinci ödəniş səviyyəsi:**

2.8.1. Azərbaycan Respublikası Hesablama Palatasının Aparatında, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatında, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) Aparatında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor, baş dispetçer və s.);

2.8.2. Azərbaycan Respublikası nazirliklərinin aparatlarında aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

2.8.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

**2.9. doqquzuncu ödəniş səviyyəsi:**

2.9.1. Azərbaycan Respublikası Hesablama Palatasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda mütəxəssis (kuryer, dispetçer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.9.2. Azərbaycan Respublikası nazirliklərinin aparatlarında mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.9.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.);

**2.10. onuncu ödəniş səviyyəsi:**

2.10.1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin və hərbi məhkəmələrin aparatlarında, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) regional mərkəzlərində, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Bakı Şəhər Prokurorluğundabaş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü və s.);

2.10.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların, Audiovizual Şuranın aparatlarında baş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü və s.);

**2.11. on birinci ödəniş səviyyəsi:**

2.11.1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin və hərbi məhkəmələrin aparatlarında, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) regional mərkəzlərində, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Bakı Şəhər Prokurorluğunda böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, komendant, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, makinaçı, operator və s.);

2.11.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların, Audiovizual Şuranın aparatlarında böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, komendant, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, makinaçı, operator və s.);

**2.12. on ikinci ödəniş səviyyəsi:**

2.12.1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin və hərbi məhkəmələrin aparatlarında, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) regional mərkəzlərində, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Bakı Şəhər Prokurorluğunda aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

2.12.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların, Audiovizual Şuranın aparatlarında aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

**2.13. on üçüncü ödəniş səviyyəsi:**

2.13.1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman), Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatında, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin və hərbi məhkəmələrin aparatlarında, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatında, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) regional mərkəzlərində, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aparatlarında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Bakı Şəhər Prokurorluğunda mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.13.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikası digər mərkəzi icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların, Audiovizual Şuranın aparatlarında mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.);

**2.14. on dördüncü ödəniş səviyyəsi:**

2.14.1. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanlarda və yerli bölmələrində, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarında, rayon (şəhər) prokurorluqlarında (Bakı Şəhər Prokurorluğu istisna olmaqla), hərbi prokurorluqlarında, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin və mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlardabaş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, komendant, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü, sosial işçi və s.);

2.14.2. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, rayon (şəhər) məhkəmələrinin aparatlarında, yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında baş mütəxəssis (rəhbərin katibi, arxiv müdiri, komendant, böyük inspektor, böyük statistik, böyük arxivçi, məsul növbətçi, sürücü, sosial işçi və s.);

**2.15. on beşinci ödəniş səviyyəsi:**

2.15.1. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda və yerli bölmələrində, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarında, rayon (şəhər) prokurorluqlarında (Bakı Şəhər Prokurorluğu istisna olmaqla), hərbi prokurorluqlarda, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin və mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, operator, makinaçı və s.);

2.15.2. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, rayon (şəhər) məhkəmələrinin aparatlarında, yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında böyük mütəxəssis (inspektor, statistik, ekspedisiya, dəftərxana, təsərrüfat, anbar müdiri, texnik, stenoqrafçı, katibə-stenoqrafçı, operator, makinaçı və s.);

**2.16. on altıncı ödəniş səviyyəsi:**

2.16.1. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanlarda və yerli bölmələrində, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarda, rayon (şəhər) prokurorluqlarında (Bakı Şəhər Prokurorluğu istisna olmaqla), hərbi prokurorluqlarda, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin və mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

2.16.2. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, rayon (şəhər) məhkəmələrinin aparatlarında, yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında aparıcı mütəxəssis (kargüzar, arxivçi, ekspeditor, katibə-makinaçı və s.);

**2.17. on yeddinci ödəniş səviyyəsi:**

2.17.1. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanlarında və yerli bölmələrində, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarında, rayon (şəhər) prokurorluqlarında (Bakı Şəhər Prokurorluğu istisna olmaqla), hərbi prokurorluqlarda, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin və mərkəzi icra hakimiyyəti orqanları yanında, tabeliyində olan orqanların yerli bölmələrində, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.);

2.17.2. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında, rayon (şəhər) məhkəmələrinin aparatlarında, yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.).

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Dövlət qulluqçularının əməyinin ödəniş səviyyələri və pillələri üzrə artım faizləri

1. İnzibati vəzifələrin minimum aylıq vəzifə maaşından başlayaraq ödəniş səviyyələri üzrə baza aylıq vəzifə maaşları hər növbəti səviyyə üzrə əvvəlkinə münasibətdə 7,5 faiz artım tətbiq olunmaqlamüəyyən edilir.

2. Yardımçı vəzifələrin minimum aylıq vəzifə maaşından başlayaraq ödəniş səviyyələri üzrə baza aylıq vəzifə maaşları hər növbəti səviyyə üzrə əvvəlkinə münasibətdə 2,7 faiz artım tətbiq olunmaqlamüəyyən edilir.

3. İnzibati və yardımçı vəzifələrin ikinci - yeddinci ödəniş pillələrinin müvafiq ödəniş səviyyəsi üzrə baza aylıq vəzifə maaşına münasibətdə hər pillə üzrə müvafiq olaraq 2,5 faiz artım tətbiq edilir.

4. 1-3-cü hissələrdə qeyd olunan faizlərə uyğun olaraq baza aylıq vəzifə maaşlarına ödəniş səviyyələri və pillələri üzrə aşağıdakı əmsallar müəyyənləşdirilir:

| Ödəniş səviyyələri | Ödəniş pillələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII |
| **İnzibati vəzifələr üzrə:** | | | | | | | |
| 1 | 11.692 | 11.984 | 12.277 | 12.569 | 12.861 | 13.153 | 13.446 |
| 2 | 10.876 | 11.148 | 11.420 | 11.692 | 11.964 | 12.236 | 12.508 |
| 3 | 10.117 | 10.370 | 10.623 | 10.876 | 11.129 | 11.382 | 11.635 |
| 4 | 9.412 | 9.647 | 9.882 | 10.117 | 10.353 | 10.588 | 10.823 |
| 5 | 8.755 | 8.974 | 9.193 | 9.412 | 9.630 | 9.849 | 10.068 |
| 6 | 8.144 | 8.348 | 8.551 | 8.755 | 8.959 | 9.162 | 9.366 |
| 7 | 7.576 | 7.765 | 7.955 | 8.144 | 8.334 | 8.523 | 8.712 |
| 8 | 7.047 | 7.224 | 7.400 | 7.576 | 7.752 | 7.928 | 8.105 |
| 9 | 6.556 | 6.720 | 6.884 | 7.047 | 7.211 | 7.375 | 7.539 |
| 10 | 6.098 | 6.251 | 6.403 | 6.556 | 6.708 | 6.861 | 7.013 |
| 11 | 5.673 | 5.815 | 5.957 | 6.098 | 6.240 | 6.382 | 6.524 |
| 12 | 5.277 | 5.409 | 5.541 | 5.673 | 5.805 | 5.937 | 6.069 |
| 13 | 4.909 | 5.032 | 5.154 | 5.277 | 5.400 | 5.523 | 5.645 |
| 14 | 4.566 | 4.681 | 4.795 | 4.909 | 5.023 | 5.137 | 5.251 |
| 15 | 4.248 | 4.354 | 4.460 | 4.566 | 4.673 | 4.779 | 4.885 |
| 16 | 3.951 | 4.050 | 4.149 | 4.248 | 4.347 | 4.445 | 4.544 |
| 17 | 3.676 | 3.768 | 3.860 | 3.951 | 4.043 | 4.135 | 4.227 |
| 18 | 3.419 | 3.505 | 3.590 | 3.676 | 3.761 | 3.847 | 3.932 |
| 19 | 3.181 | 3.260 | 3.340 | 3.419 | 3.499 | 3.578 | 3.658 |
| 20 | 2.959 | 3.033 | 3.107 | 3.181 | 3.255 | 3.329 | 3.403 |
| 21 | 2.752 | 2.821 | 2.890 | 2.959 | 3.028 | 3.096 | 3.165 |
| 22 | 2.560 | 2.624 | 2.688 | 2.752 | 2.816 | 2.880 | 2.944 |
| 23 | 2.382 | 2.441 | 2.501 | 2.560 | 2.620 | 2.680 | 2.739 |
| 24 | 2.216 | 2.271 | 2.326 | 2.382 | 2.437 | 2.493 | 2.548 |
| 25 | 2.061 | 2.113 | 2.164 | 2.216 | 2.267 | 2.319 | 2.370 |
| 26 | 1.917 | 1.965 | 2.013 | 2.061 | 2.109 | 2.157 | 2.205 |
| 27 | 1.783 | 1.828 | 1.873 | 1.917 | 1.962 | 2.006 | 2.051 |
| 28 | 1.659 | 1.701 | 1.742 | 1.783 | 1.825 | 1.866 | 1.908 |
| 29 | 1.543 | 1.582 | 1.620 | 1.659 | 1.698 | 1.736 | 1.775 |
| 30 | 1.436 | 1.472 | 1.507 | 1.543 | 1.579 | 1.615 | 1.651 |
| 31 | 1.335 | 1.369 | 1.402 | 1.436 | 1.469 | 1.502 | 1.536 |
| 32 | 1.242 | 1.273 | 1.304 | 1.335 | 1.367 | 1.398 | 1.429 |
| 33 | 1.156 | 1.185 | 1.213 | 1.242 | 1.271 | 1.300 | 1.329 |
| 34 | 1.075 | 1.102 | 1.129 | 1.156 | 1.183 | 1.209 | 1.236 |
| 35 | 1.000 | 1.025 | 1.050 | 1.075 | 1.100 | 1.125 | 1.150 |
| **Yardımçı vəzifələr üzrə:** | | | | | | | |
| 1 | 1.532 | 1.570 | 1.608 | 1.646 | 1.685 | 1.723 | 1.761 |
| 2 | 1.491 | 1.529 | 1.566 | 1.603 | 1.640 | 1.678 | 1.715 |
| 3 | 1.452 | 1.488 | 1.525 | 1.561 | 1.597 | 1.634 | 1.670 |
| 4 | 1.414 | 1.449 | 1.485 | 1.520 | 1.555 | 1.591 | 1.626 |
| 5 | 1.377 | 1.411 | 1.446 | 1.480 | 1.514 | 1.549 | 1.583 |
| 6 | 1.341 | 1.374 | 1.408 | 1.441 | 1.475 | 1.508 | 1.542 |
| 7 | 1.305 | 1.338 | 1.371 | 1.403 | 1.436 | 1.468 | 1.501 |
| 8 | 1.271 | 1.303 | 1.335 | 1.366 | 1.398 | 1.430 | 1.462 |
| 9 | 1.238 | 1.268 | 1.299 | 1.330 | 1.361 | 1.392 | 1.423 |
| 10 | 1.205 | 1.235 | 1.265 | 1.295 | 1.326 | 1.356 | 1.386 |
| 11 | 1.173 | 1.203 | 1.232 | 1.261 | 1.291 | 1.320 | 1.349 |
| 12 | 1.142 | 1.171 | 1.200 | 1.228 | 1.257 | 1.285 | 1.314 |
| 13 | 1.112 | 1.140 | 1.168 | 1.196 | 1.224 | 1.252 | 1.279 |
| 14 | 1.083 | 1.110 | 1.137 | 1.164 | 1.192 | 1.219 | 1.246 |
| 15 | 1.055 | 1.081 | 1.107 | 1.134 | 1.160 | 1.187 | 1.213 |
| 16 | 1.027 | 1.053 | 1.078 | 1.104 | 1.130 | 1.155 | 1.181 |
| 17 | 1.000 | 1.025 | 1.050 | 1.075 | 1.100 | 1.125 | 1.150 |

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Dövlət qulluqçularının əməyinin ödəniş səviyyələri və pillələri üzrə aylıq vəzifə maaşlarının məbləği

| Ödəniş səviyyələri | Ödəniş pillələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | I | II | III | IV | V | VI | VII |
| **İnzibati vəzifələr üzrə:** | | | | | | | |
| 1 | 13680 | 14020 | 14365 | 14705 | 15050 | 15390 | 15730 |
| 2 | 12725 | 13045 | 13360 | 13680 | 14000 | 14315 | 14635 |
| 3 | 11835 | 12135 | 12430 | 12725 | 13020 | 13315 | 13615 |
| 4 | 11010 | 11285 | 11560 | 11835 | 12115 | 12390 | 12665 |
| 5 | 10245 | 10500 | 10755 | 11010 | 11265 | 11525 | 11780 |
| 6 | 9530 | 9765 | 10005 | 10245 | 10480 | 10720 | 10960 |
| 7 | 8865 | 9085 | 9305 | 9530 | 9750 | 9970 | 10195 |
| 8 | 8245 | 8450 | 8660 | 8865 | 9070 | 9275 | 9485 |
| 9 | 7670 | 7860 | 8055 | 8245 | 8435 | 8630 | 8820 |
| 10 | 7135 | 7315 | 7490 | 7670 | 7850 | 8025 | 8205 |
| 11 | 6635 | 6805 | 6970 | 7135 | 7300 | 7465 | 7635 |
| 12 | 6175 | 6330 | 6485 | 6635 | 6790 | 6945 | 7100 |
| 13 | 5745 | 5885 | 6030 | 6175 | 6320 | 6460 | 6605 |
| 14 | 5340 | 5475 | 5610 | 5745 | 5875 | 6010 | 6145 |
| 15 | 4970 | 5095 | 5220 | 5340 | 5465 | 5590 | 5715 |
| 16 | 4625 | 4740 | 4855 | 4970 | 5085 | 5200 | 5315 |
| 17 | 4300 | 4410 | 4515 | 4625 | 4730 | 4840 | 4945 |
| 18 | 4000 | 4100 | 4200 | 4300 | 4400 | 4500 | 4600 |
| 19 | 3720 | 3815 | 3910 | 4000 | 4095 | 4185 | 4280 |
| 20 | 3460 | 3550 | 3635 | 3720 | 3810 | 3895 | 3980 |
| 21 | 3220 | 3300 | 3380 | 3460 | 3545 | 3620 | 3705 |
| 22 | 2995 | 3070 | 3145 | 3220 | 3295 | 3370 | 3445 |
| 23 | 2785 | 2855 | 2925 | 2995 | 3065 | 3135 | 3205 |
| 24 | 2590 | 2655 | 2720 | 2785 | 2850 | 2915 | 2980 |
| 25 | 2410 | 2470 | 2530 | 2595 | 2650 | 2715 | 2775 |
| 26 | 2245 | 2300 | 2355 | 2410 | 2470 | 2525 | 2580 |
| 27 | 2085 | 2140 | 2190 | 2245 | 2295 | 2350 | 2400 |
| 28 | 1940 | 1990 | 2040 | 2085 | 2135 | 2185 | 2230 |
| 29 | 1805 | 1850 | 1895 | 1940 | 1985 | 2030 | 2075 |
| 30 | 1680 | 1720 | 1765 | 1805 | 1845 | 1890 | 1930 |
| 31 | 1560 | 1600 | 1640 | 1680 | 1720 | 1755 | 1795 |
| 32 | 1455 | 1490 | 1525 | 1560 | 1600 | 1635 | 1670 |
| 33 | 1355 | 1385 | 1420 | 1455 | 1485 | 1520 | 1555 |
| 34 | 1260 | 1290 | 1320 | 1355 | 1385 | 1415 | 1445 |
| 35 | 1170 | 1200 | 1230 | 1260 | 1285 | 1315 | 1345 |
| **Yardımçı vəzifələr üzrə:** | | | | | | | |
| 1 | 1165 | 1195 | 1220 | 1250 | 1280 | 1310 | 1340 |
| 2 | 1135 | 1160 | 1190 | 1220 | 1245 | 1275 | 1305 |
| 3 | 1105 | 1130 | 1160 | 1185 | 1215 | 1240 | 1270 |
| 4 | 1075 | 1100 | 1130 | 1155 | 1180 | 1210 | 1235 |
| 5 | 1045 | 1070 | 1100 | 1125 | 1150 | 1175 | 1205 |
| 6 | 1020 | 1045 | 1070 | 1095 | 1120 | 1145 | 1170 |
| 7 | 990 | 1015 | 1040 | 1065 | 1090 | 1115 | 1140 |
| 8 | 965 | 990 | 1015 | 1040 | 1065 | 1085 | 1110 |
| 9 | 940 | 965 | 985 | 1010 | 1035 | 1060 | 1080 |
| 10 | 915 | 940 | 960 | 985 | 1010 | 1030 | 1055 |
| 11 | 890 | 915 | 935 | 960 | 980 | 1005 | 1025 |
| 12 | 870 | 890 | 910 | 935 | 955 | 975 | 1000 |
| 13 | 845 | 865 | 890 | 910 | 930 | 950 | 970 |
| 14 | 825 | 845 | 865 | 885 | 905 | 925 | 945 |
| 15 | 800 | 820 | 840 | 860 | 880 | 900 | 920 |
| 16 | 780 | 800 | 820 | 840 | 860 | 880 | 900 |
| 17 | 760 | 780 | 800 | 815 | 835 | 855 | 875 |

**Qeyd:** Aylıq vəzifə maaşlarının məbləğləri tam ədədə (sonuncu rəqəmi "0" və ya "5" olmaqla) yuvarlaqlaşdırılır.

# "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində,"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi, bəzi fərmanlarının və sərəncamlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 334.1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;

1.2. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 2-ci hissəsinin birinci cümləsində (ikinci halda) və 7-ci hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirir;

1.3. həmin Qanunun 10-cu maddəsinin 2-ci hissəsinin birinci cümləsində (birinci halda) və 7-ci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (Daxili Qoşunların Baş İdarəsinə münasibətdə), Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər;

1.4. həmin Qanunun 10-cu maddəsinin 2-ci hissəsinin birinci cümləsində və7-ci hissəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;

1.5. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini isə Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;

1.6. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun 109-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;

1.7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.3-cü (üçüncü halda), 11.1.4.17-ci (ikinci halda), 11.1.5.5-ci (ikinci halda), 22.4-cü, 22.6-cı, 33-3.5-ci maddələrində və 33-4-cü maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuşmüvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun33-3.5-ci maddəsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.9. həmin Qanunun 22.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.10. həmin Qanunun 22.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.11. həmin Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulmuşNaxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.12. həmin Qanunun 8.1.2-ci, 8.1.3-cü (ikinci halda), 11.1.3.12-ci, 11.1.4.13-cü, 11.1.4.16-cı, 11.1.4.17-ci (birinci halda), 11.1.5.5-ci (birinci halda), 11.1.5.12-ci və 11.1.6.4-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri həyata keçirirlər;

1.13. həmin Qanunun 8.1.3-cü (birinci halda) və 11.1.5.7-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) və Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirirlər;

1.14. həmin Qanunun 11.1.3.11-ci və 11.1.5.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) həyata keçirirlər;

1.15. həmin Qanunun 11.1.4.14-cü və 11.1.5.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.16. "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 21.6-cı maddəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;

1.17. "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun 100-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;

1.18. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 20.10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini isə Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;

1.19. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 23.12-ci, 25.7-ci maddələrində və 37.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

1.20. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun 90-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;

1.21. "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun 23.16-cı və 25.11-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

1.22. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin diplomatik xidmət əməkdaşlarının (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəlikləri istisna olmaqla) vəzifə maaşları və vəzifə maaşına əlavələr müəyyən edilənədək, həmin şəxslərə dövlət məvacibinin ödənilməsi bu fərman qüvvəyə minənədək tətbiq edilən qaydada və məbləğdə davam etdirilir;

1.23. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.2-ci maddəsinə uyğun olaraq, diplomatik rütbəyə görə əlavə müəyyən edilənədək xarici işlər nazirinə və onun müavinlərinə yalnız qüvvədə olan vəzifə maaşı, diplomatik rütbəyə görə əlavə müəyyən edildikdən sonraisə həmin şəxslərə diplomatik rütbəyə görə əlavənin ödənilmədiyi bütün müddət üçün hesablanıb ödənilir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitləri, habelə fəaliyyətindən əldə olunan gəlirləri hesabına verilən vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin yuxarı hədlərini Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 621 (Cild I); 2025, № 8, maddə 753)2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.5-ci bənddə birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "hissələrində" sözündən sonra "və 35-ci maddəsinin III hissəsində" sözləri əlavə edilsin;

3.2. 2.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.10-cu bənd əlavə edilsin:

"2.10. həmin Qanunun 35-ci maddəsinin III hissəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir.".

4. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 22 (Cild I); 2024, № 6 (I kitab), maddə 677, № 12 (II kitab), maddə 1358) 2-ci hissəsinin beşinci abzasına "səlahiyyətlərini" sözündən əvvəl ", habelə həmin Əsasnamənin 109-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının" sözləri əlavə edilsin.

5. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); 2024, № 5 (I kitab), maddə 526, № 7, maddə 805; 2025, № 2, maddə 124, № 7, maddə 632, № 9, maddə 817, № 12 (I kitab), maddə1147) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-ci bənddə "maddəsində, 11.1.3.12-ci (ikinci halda), 11.1.4.13-cü (ikinci halda), 11.1.5.5-ci (ikinci halda), 11.1.6.2-ci (ikinci halda)" sözləri ", 8.1.3-cü (üçüncü halda), 11.1.4.17-ci (ikinci halda), 11.1.5.5-ci (ikinci halda)" sözləri ilə, "22.3-cü maddələrində, 22.7-ci maddəsinin birinci cümləsində, 22.7-2-ci" sözləri "22.4-cü, 22.6-cı" sözləri ilə əvəz olunsun və həmin bəndə "nəzərdə" sözündən əvvəl ", 33-3.5-ci maddəsində, 33-4-cü maddəsinin "Qeyd" hissəsində" sözləri əlavə edilsin;

5.2. 3.1-1-ci bənddə "və 23.2-1-ci maddəsində" sözləri ", 23.2-1-ci və 33-3.5-ci maddələrində" sözləri ilə əvəz edilsin;

5.3. 3.2-1-ci bənddə "22.3-cü (Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları, habelə digər dövlət orqanlarının xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinə münasibətdə), 22.7-2-ci maddələrində" sözləri "22.6-cı maddəsində" sözləri ilə əvəz edilsin;

5.4. aşağıdakı məzmunda 3.2-3-cü bənd əlavə edilsin:

"3.2-3. həmin Qanunun 22.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;";

5.5. 3.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"3.6. həmin Qanunun 8.1.2-ci maddəsində nəzərdə tutulmuş:

3.6.1. Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.6.2. müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri həyata keçirirlər;";

5.6. aşağıdakı məzmunda 3.6-1-ci bənd əlavə edilsin:

"3.6-1. həmin Qanunun 8.1.3-cü maddəsində nəzərdə tutulmuş:

3.6-1.1. birinci halda müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) və Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirirlər;

3.6-1.2. müvafiq icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətlərinin səlahiyyətlərini Azərbaycan Respublikası nazirlikləri yanında yaradılan rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri həyata keçirirlər;";

5.7. 3.12-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.12-1. həmin Qanunun 11.1.3.12-ci, 11.1.4.13-cü, 11.1.4.16-cı, 11.1.4.17-ci (birinci halda), 11.1.5.5-ci (birinci halda), 11.1.5.12-ci və 11.1.6.4-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının nazirlikləri həyata keçirirlər;";

5.8. aşağıdakı məzmunda 3.12-2-civə 3.12-3-cü bəndlər əlavə edilsin:

"3.12-2. həmin Qanunun 11.1.3.11-ci və 11.1.5.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) həyata keçirirlər;

3.12-3. həmin Qanunun 11.1.4.14-cü və 11.1.5.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları həyata keçirirlər;";

5.9. 3.22-4-cü bənddən "11.1.5.7-ci maddəsində, "sözləri çıxarılsın;

5.10. aşağıdakı məzmunda 3.22-5-ci bənd əlavə edilsin:

"3.22-5. həmin Qanunun 11.1.5.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları, onlara bərabər tutulan orqanlar (Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi) və Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirirlər;".

6."Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 471 (Cild I); 2024, № 12 (II kitab), maddə 1358) 2-ci hissəsinin altıncı abzası yeddinci abzas hesab olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"həmin Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;".

7. "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 472 (Cild I); 2024, № 12 (II kitab), maddə 1358) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. üçüncü abzasa "97-ci," sözlərindən sonra "100-1-ci," sözləri əlavə olunsun və həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

7.2. aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"həmin Əsasnamənin 100-1-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir;".

8. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584 (Cild I); 2024, № 8, maddə 943) ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 12-ci hissə aşağıdakı redaksiyada verilsin:

"12. İxtisas dərəcələrinin verildiyi gündən başlayaraq dövlət qulluqçusuna hər ay aşağıdakı məbləğdə vəzifə maaşına ixtisas dərəcəsinə görə əlavə haqq ödənilir:

| Sıra №-si | İxtisas dərəcəsi | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Həqiqi dövlət müşaviri | 600 |
| 2. | 1-ci dərəcə dövlət müşaviri | 550 |
| 3. | 2-ci dərəcə dövlət müşaviri | 500 |
| 4. | 3-cü dərəcə dövlət müşaviri | 450 |
| 5. | Dövlət qulluğunun baş müşaviri | 400 |
| 6. | Dövlət qulluğunun müşaviri | 350 |
| 7. | Dövlət qulluğunun kiçik müşaviri | 300 |
| 8. | 1-ci dərəcə dövlət qulluqçusu | 275 |
| 9. | 2-ci dərəcə dövlət qulluqçusu | 250 |
| 10. | 3-cü dərəcə dövlət qulluqçusu | 225 |
| 11. | Kiçik dövlət qulluqçusu | 200 |
| 12. | Dövlət qulluğunun baş referenti | 175 |
| 13. | Dövlət qulluğunun böyük referenti | 150 |
| 14. | Dövlət qulluğunun 1-ci dərəcə referenti | 125 |
| 15. | Dövlət qulluğunun 2-ci dərəcə referenti | 100 |
| 16. | Dövlət qulluğunun 3-cü dərəcə referenti | 75 |
| 17. | Dövlət qulluğunun kiçik referenti | 50 |

*Ardı 10-cu səh.*

# "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində,"Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi, bəzi fərmanlarının və sərəncamlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 9-cu səh.*

8.2. 13-cü hissədə "aylıq vəzifə maaşının 2 misli" sözləri "baza aylıq vəzifə maaşının (birinci ödəniş pilləsi) ali kateqoriya dövlət orqanları üzrə - 0,6 misli, 1-ci kateqoriya dövlət orqanları üzrə - 0,8 misli, 2-ci kateqoriya dövlət orqanları üzrə - 0,9 misli, 3-cü kateqoriya dövlət orqanları üzrə - 1,2 misli, 4-cü kateqoriya dövlət orqanları üzrə - 1,7 misli və 5-ci kateqoriya dövlət orqanları üzrə - 2 misli" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817)ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1.1.9.40-cı və 1.9.41-ci yarımbəndlərdən "və onun müavini" sözləri çıxarılsın;

9.2. 2.1.2.29-cu abzasa "Məclisi,"sözündən sonra "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının nazirlikləri," sözləri əlavə edilsin;

9.3. 2.1.3-cü yarımbənd üzrə:

9.3.1. 2.1.3.10-cu abzasa "Məclisi," sözündən sonra "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının nazirlikləri," sözləri əlavə edilsin;

9.3.2.2.1.3.14 - 2.1.3.16-cı abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.3.14. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanlarının, Azərbaycan Respublikası Audiovizual Şurasının, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərləri;

2.1.3.15. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

2.1.3.16. Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;";

9.4. 2.1.4-cü yarımbənd üzrə:

9.4.1. 2.1.4.19-cu abzasa "Məclisinin," sözündən sonra "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası nazirliklərinin," sözləri əlavə edilsin;

9.4.2. 2.1.4.20-ci və 2.1.4.21-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.4.20. Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərlərinin müavinləri və həmin orqanların aparatlarında şöbə müdirləri;

2.1.4.21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Azərbaycan Respublikası nazirlərinin müşavirləri, köməkçiləri;";

9.4.3. aşağıdakı məzmunda 2.1.4.22-1-ci abzas əlavə edilsin:

"2.1.4.22-1. Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatında və Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda şöbə müdirləri;";

9.4.4. 2.1.4.23-cü abzasdan ", Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti," sözləri çıxarılsın;

9.4.5. 2.1.4.24-cü və 2.1.4.25-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.4.24. Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri;

2.1.4.25. Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;";

9.4.6. aşağıdakı məzmunda 2.1.4.27-ci abzas əlavə edilsin:

"2.1.4.27. Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;";

9.5.2.1.5-ci yarımbənd üzrə:

9.5.1. 2.1.5.1-ci abzasa "Məclisinin," sözündən sonra "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası nazirliklərinin," sözləri əlavə edilsin;

9.5.2.2.1.5.2-ci abzas aşağıdakı redaksiyada verilsin:

"2.1.5.2. Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikasının nazirlikləri istisna olmaqla, Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikası Audiovizual Şurasının, Bakı Şəhər İcra Hakimiyyəti başçısının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində şöbə müdirlərinin müavinləri;";

9.5.3. 2.1.5.3-cü abzas ləğv edilsin;

9.5.4.2.1.5.5-ci və 2.1.5.6-cı abzaslar aşağıdakı redaksiyada verilsin:

"2.1.5.5. Azərbaycan Respublikası nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinləri;

2.1.5.6. Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında şöbə müdirləri və onların müavinləri, həmin orqanların rəhbərlərinin müşavirləri və köməkçiləri;";

9.5.5. 2.1.5.7-ci abzasdan ", Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin" sözləri çıxarılsın;

9.5.6. 2.1.5.8-ci abzasa "Respublikası" sözündən sonra "nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər" sözləri əlavə edilsin;

9.5.7. 2.1.5.11-ci abzas aşağıdakı redaksiyada verilsin:

"2.1.5.11. Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında şöbə müdiri;";

9.6. 2.1.6-cı yarımbənd üzrə:

9.6.1. 2.1.6.2-ci abzasdan "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında," sözləri çıxarılsın və həmin abzasda "Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların" sözləri "Azərbaycan Respublikası nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Azərbaycan Respublikasının nazirlikləri yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətlərinin," sözləri ilə əvəz edilsin;

9.6.2. 2.1.6.5-ci abzas aşağıdakı redaksiyada verilsin:

"2.1.6.5. Azərbaycan Respublikası nazirlikləri yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri aparatlarında şöbə müdirinin müavini;";

9.6.3. 2.1.6.7-ci abzasa birinci halda "Respublikasının" sözündən sonra "nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər" sözləri əlavə edilsin;

9.6.4.2.1.6.8-ci abzas ləğv edilsin;

9.7. 2.1.7-ci yarımbənd üzrə:

9.7.1. 2.1.7.1-ci abzasa "xidmətlərinin" sözlərindən sonra "(bu Təsnifat Toplusunun 2.1.6.2-ci abzası nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

9.7.2. 2.1.7.3-cü abzas ləğv edilsin;

9.8. 2.1.8.4-cü abzasdan ", onların müavinləri və baş mühasib" sözləri çıxarılsın;

9.9. 2.3.2-ci yarımbəndin birinci abzasına "Məclisinin," sözündən sonra "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası nazirliklərinin," sözləri əlavə edilsin;

9.10. 2.3.3-cü yarımbənd üzrə:

9.10.1.1-ci abzasdan "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin," sözləri çıxarılsın, həmin abzasa üçüncühalda "Azərbaycan Respublikası" sözlərindən sonra "nazirlikləri istisna olmaqla Azərbaycan Respublikasının digər" sözləri və "orqanları" sözündən sonra "(Azərbaycan Respublikasının nazirlikləri də daxil olmaqla)" sözləri əlavə edilsin;

9.10.2. 2-ci abzas ləğv edilsin;

9.11. 2.3-1-ci bəndə "Toplusunun" sözündən sonra "2.1.3.14-cü," sözləri əlavə edilsin.

10. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 104 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 612 (Cild I); 2025, № 1, maddə 52) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.6-cı bənddə birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "nəzərdə" sözündən əvvəl "və 20.10-1-ci maddəsində" sözləri əlavə edilsin;

10.2. 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. həmin Qanunun 20.10-1-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanın səlahiyyətlərini Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidməti həyata keçirir.".

11. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 194 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 70 (Cild I); 2024, № 8, maddə 943; 2025, № 2, maddə 124) ilə təsdiq edilmiş "Dövlət qulluqçularına əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibinin hesablanması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Əmək pensiyasının təyin edilməsi üçün dövlət məvacibi dövlət qulluqçusunun əmək pensiyasına qulluq stajına görə əlavə almaq hüququnun yarandığı tarixədək sonuncu artımlar nəzərə alınmaqla, müvafiq vəzifədə aldığı aylıq vəzifə maaşının, ixtisas dərəcəsinə görə əlavə haqqın, qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə ödənilən əlavə haqqın və əmək qanunvericiliyinə əsasən əmək şəraiti ilə əlaqədar dövlət qulluqçularına şamil edilən əlavələrin (qulluq şəraitinin ağır və zərərliliyinə, iqlim şəraitinə və s.) məbləği əsasında bu Qaydalara uyğun olaraq hesablanır.";

11.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. "Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında", "Hesablama Palatası haqqında", "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi və "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun ləğv edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 368-VIIQD nömrəli Qanunu qüvvəyə minənədək dövlət qulluğuna xitam verilmiş şəxslərə ödənilmiş vəzifə maaşı, əlavə, mükafat və digər ödənişlər həmin Qanunla müəyyən edilmiş yeni dövlət məvacibinin tərkibinə daxil edilir.";

11.3. 8-ci, 9-cu,11-ci və 12-ci hissələr ləğv edilsin.

12. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 594 (Cild I); 2024, № 5 (I kitab), maddə 523, № 12 (II kitab), maddə 1358;2025, № 7, maddə 648) 2.5-ci bəndinə "22.2-ci," sözlərindən sonra "23.12-ci," sözləri, "25.5-ci," sözlərindən sonra "25.7-ci," sözləri əlavə olunsun və həmin bənddə "37.6-cı maddəsinin ikinci cümləsində" sözləri"37.1-civə 37.6-cı maddələrinin ikinci cümlələrində," sözləri ilə əvəz edilsin.

13. "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 206 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 994 (Cild I) 2.3-cü bəndinə "(hər iki halda)," sözlərindənsonra "90-2-ci," sözləri əlavə edilsin.

14. "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 avqust tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 719 (Cild I); 2024, № 12 (II kitab), maddə 1358) 2.3-cü bəndinə "25.6-cı" sözlərindən əvvəl "23.16-cı maddəsində," sözləri, "26.3-cü" sözlərindən əvvəl "25.11-ci," sözləri əlavə edilsin.

15. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793 (Cild I); 2025, № 11, maddə 1018) 28.7-ci bəndinə "334.1.2-ci" sözlərindən sonra "(hər iki halda)" sözləri əlavə edilsin.

16. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 690 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 842 (Cild I); 2025, № 4 (I kitab), maddə 345) ilə təsdiq edilmiş "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

16.1. 4.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.2. Dövlət məvacibi:

______________ manat - aylıq vəzifə maaşından;

______________ manat - ixtisas dərəcəsinə görə əlavə haqdan;

______________ manat - qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə ödənilən əlavə haqdan;

____________ manat - əmək qanunvericiliyinə əsasən qulluq şəraitinin ağır və zərərli olmasına görə əməkhaqqına əlavədən;

___________ manat- əmək qanunvericiliyinə əsasən iqlim şəraitinə görə qulluq keçmək üçün əlverişli olmayan iş yerlərində əməkhaqqına əlavədən;

___________ manat - əmək qanunvericiliyinə əsasən digər (əvəzetmə və sair) əlavədən ibarətdir.";

16.2. 4.1.3-cü yarımbənddən "kollektiv və fərdi" sözləri çıxarılsın.

17. "Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3787 nömrəli, "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və "Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199 (Cild I) 1-ci və 2-ci hissələri ləğv edilsin.

18. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 mart tarixli 978 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1612 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 200 (Cild I) 1.1 - 1.3-cü bəndləriləğv edilsin.

19."Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1909 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 32 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

20. "Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğinin müəyyənləşdirilməsivə ödənilməsi Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 48 (Cild I); 2024, № 8, maddə 943) ləğv edilsin.

21. "Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 774 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 494; 2009, № 6, maddə 419 (Cild I) ləğv edilsin.

22. "Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı"nın və hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləğinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 776 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 494 (Cild I) ləğv edilsin.

23. "Dövlət qulluqçularının əmək haqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1610 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 198 (Cild I); 2025, № 11, maddə 1018) ləğv edilsin.

24."Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin və onun tabeliyindəki "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1614 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 202 (Cild I) ləğv edilsin.

25. "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəhbərliyinə aid olan hərbi qulluqçuların vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1617 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 205 (Cild I) ləğv edilsin.

26. "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəhbərliyinə aid olan hərbi qulluqçuların vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1618 nömrəli Fərmanı Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 206 (Cild I) ləğv edilsin.

27. "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəhbərliyinə aid olan hərbi qulluqçuların vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1619 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 207 (Cild I) ləğv edilsin.

28. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində işləyən dövlət qulluqçularına ödənilən müavinət barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 1369 nömrəli Sərəncamı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 608 (Cild I) ləğv edilsin.

29. "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində qulluq keçən dövlət qulluqçularına müalicə müavinəti ödənilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 24 noyabr tarixli 1855 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1054 (Cild I) ləğv edilsin.

30. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2026-cı il*

# Baş nazir Əli Əsədov Gürcüstan səfirliyində başsağlığı verib





Baş nazir Əli Əsədov Gürcüstan səfirliyində başsağlığı verib. AZƏRTAC xəbər verir ki, martın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın Azərbaycandakı səfirliyinə gedərək Bütün Gürcüstanın Katalikos-Patriarxı, görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı ilə əlaqədar başsağlığı kitabına ürək sözlərini qeyd edib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 81** **Bakı şəhəri, 17 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İşğaldan azad olunmuş ərazilərdə tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 492 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 388 (Cild I); 2025, № 2, maddə 187, № 4 (I kitab), maddə 404) ilə təsdiq edilmiş "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nın 1.4-cü bəndinə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti," sözlərindən sonra "İşğaldan azad olunmuş ərazilərdə tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 492 nömrəli Fərmanı ilə müəyyən edilən inzibati ərazi vahidlərində həmin Fərman ilə müəyyən edilmiş səlahiyyətlərinə uyğun olaraq həmin Fərmanın 1.1.1 - 1.1.6-cı yarımbəndlərində qeyd olunan publik hüquqi şəxslər," sözləri əlavə edilsin.

2. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"nın təsdiq edilməsi və "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 84** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.6-cı abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 301 (Cild I); 2025, № 10, maddə 974) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi və "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 85** **Bakı şəhəri, 19 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.4-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 876 (Cild); 2024, № 3, maddə 305; 2025, № 12 (II kitab), maddə 1209) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Pakistanın Azərbaycandakı səfiri xalqımızı Ramazan və Novruz bayramları münasibətilə təbrik edib

Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Qasım Mohiuddin Ramazan və Novruz bayramları münasibətilə ürək sözlərini AZƏRTAC-ın müxbiri ilə bölüşüb.

Diplomat Azərbaycana davamlı sülh, əmin-amanlıq və rifah arzulayıb.

"Azərbaycandakı qardaş və bacılarımıza Pakistanda yaşayan hər kəsin adından müqəddəs Ramazan və Novruz bayramları münasibətilə ən xoş arzularımı və səmimi təbriklərimi çatdırmaq istərdim. Bu iki xüsusi bayram sülh, həmrəylik və şükranlıq kimi ümumbəşəri dəyərləri təcəssüm etdirir",- deyə səfir vurğulayıb.

Səfir sonra Azərbaycan dilində "Ramazan və Novruz bayramınız mübarək!" deyərək fikirlərini yekunlaşdırıb.

# Novruz Tacikistan və Azərbaycan xalqlarını birləşdirən ortaq bayramdır

Tacikistanın ölkəmizdəki səfiri İlxom Abduraxmon Azərbaycan Dövlət İnformasiya Agentliyi vasitəsilə xalqımızı Novruz bayramı münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, diplomat Azərbaycan xalqına sülh, xeyirxahlıq, səadət və uğurlar, əmin-amanlıq, tərəqqi arzulayıb.

Səfir qeyd edib ki, Novruz xeyirxahlığın, qarşılıqlı anlaşmanın, sülhün və firavanlığın rəmzidir.

Onun sözlərinə görə, Novruz Tacikistan və Azərbaycan xalqlarını birləşdirən ortaq bir bayramdır. Bu bayram hər iki ölkə üçün təkcə onların tarixi və mədəni irsinin vacib bir hissəsi deyil, həm də dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət, ortaq mədəni və ənənəvi dəyərlərin rəmzidir.

Diplomat vurğulayıb ki, bu dəyərlər xalqlarımızın qədim ənənələrinin qorunmasına, eləcə də ölkələrimiz arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə, mədəni əlaqələrin inkişafına mühüm töhfə verir.

"Fürsətdən istifadə edərək, hər birinizə ən xoş arzularımı bir daha ifadə edirəm, qardaş Azərbaycan xalqına sülh, xeyirxahlıq, səadət və uğurlar, əmin-amanlıq, tərəqqi arzulayıram", - deyə İlxom Abduraxmon əlavə edib.

# Energetika naziri Ağsuda vətəndaşların müraciətlərini dinləyib

Energetika naziri Pərviz Şahbazov Ağsu rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, elektrik verilişi xətlərinin mühafizə zonası, elektrik enerjisinin fasilələrlə verilməsi, elektrik enerjisinin keyfiyyəti, elektrik xətlərinin istismar vəziyyəti, qaz sayğaclarının dəyişdirilməsi, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib. Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib. Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Ağsu, Ağcabədi, Göyçay rayonlarından olan 14 vətəndaş iştirak edib.

# Şərqi Zəngəzur iqtisadi rayonu üzrə sahibkarların müraciətləri dinlənilib

Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarından olan sahibkarların onlayn qəbulu keçirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, agentliyin təşkilatçılığı ilə keçirilmiş qəbul zamanı İdarə Heyəti sədrinin müavini Emil Hüseynli və KOBİA-nın müvafiq struktur bölmələrinin nümayəndələri sahibkarları dövlətin dəstək alətləri, o cümlədən bölgə üzrə vergi güzəştləri və azadolmalar, regionun biznes potensialı, agentliyin dəstək alətləri barədə məlumatlandırıblar. Həmçinin qəbul zamanı sahibkarların özünüməşğulluq proqramı, logistika, sahibkarlığın inkişafına dəstək mexanizmləri barədə sualları cavablandırılıb. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilər üzrə KOBİA-nın beş ünvanda xidmət infrastrukturu fəaliyyət göstərir və sahibkarlar, eləcə də biznesə başlamaq istəyən şəxslər bu imkandan faydalana bilərlər.

Qəbul zamanı sahibkarların qaldırdığı bəzi məsələlər qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün aidiyyəti qurumlarla birgə araşdırılacaq.

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | **8** |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **9** |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **13** |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | **3** |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | **1** |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | **16** |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | **22** |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | **6** |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | **10** |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | **6** |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | **15** |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | **29** |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | **14** |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | **30** |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | **17** |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | **23** |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | **27** |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | **20** |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | **21** |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | **10** |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | **7** |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | **2** |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | **24** |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | **17** |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | **23** |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | **28** |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | **14** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Ardıcıl, sistemli və sürətli...

## Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində bütün işlər uğurla yerinə yetirilir

İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış sürətlə davam edir. Martın 17-də Ağdərə, Xocavənd və Cəbrayıl rayonlarının kəndlərinə yeni köç karvanları yola düşüb. Martın 19-da isə Xocavənd şəhərinə və Xocalı rayonunun Xanabad kəndinə növbəti ailələr köçürülüb. Demək olar ki, Böyük qayıdış ardıcıl və mərhələli şəkildə uğurla həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmaqla yanaşı, həm də milli ideya səviyyəsinə yüksəlib. Bu proses ölkəmizin suverenliyinin, gücünün və qətiyyətinin nümunəsidir. Görülən işlər həm keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etməyə, həm də regionda dayanıqlı sosial-iqtisadi inkişafı formalaşdırmağa xidmət edir.

Xüsusilə qeyd olunmalıdır ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. Dost dövlətlərin dəstəyi ilə reallaşdırılan layihələr istisna olmaqla, bütün tikinti işlərini respublikamız özü maliyyələşdirir. Bu isə ölkəmizin iqtisadi gücünü və müstəqil siyasət yürütmək imkanlarını bir daha nümayiş etdirir.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2020-2025-ci illərdə dövlət büdcəsindən 22 milyard manat vəsait ayrılıb. 2026-cı ildə bu məqsədə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Bu il daxil olmaqla, dövlət büdcəsindən ümumilikdə 25,5 milyard manat vəsait ayrılıb.

Ötən dövrdə Qarabağ və Şərqi Zəngəzurda infrastrukturların qurulması istiqamətində genişmiqyaslı işlər görülüb. Müasir elektrik enerjisi sistemi yaradılıb, su xətləri çəkilib, yeni yollar inşa olunub. Bütün bu işlər bölgədə həyatın bərpası üçün vacib amillərdir. Eyni zamanda sosial obyektlərin qurulması da paralel şəkildə davam edir. Məktəblər fəaliyyətə başlayır. Uşaq bağçaları istifadəyə verilir.

İndiyədək 41 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Bu gün artıq on minlərlə insan doğma torpaqlarında yaşayır. Prezident İlham Əliyev martın 18-də Xocavənd rayonunun Xanoba kəndində aparılan bərpa işləri ilə tanış olarkən sakinlərlə görüşündə bildirib: "Biz öz milli qürurumuzu bərpa etdik, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Bunun nəticəsində biz bu gün bu torpaqlardayıq və biz bu torpaqların əsl sahibləriyik. Çünki Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük qayıdış" proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar. Siz də artıq üç-dörd gündür ki, buradasınız".

Görünən odur ki, Qarabağ və Şərqi Zəngəzur sürətlə yenidən qurulur. Bu sahədə dövlətimizin prioritetləri tam aydındır. "Böyük qayıdış" proqramına uyğun olaraq qarşıya konkret vəzifələr qoyulub və həmin vəzifələrin hər biri vaxtında, yüksək keyfiyyətlə icra olunur, keçmiş məcburi köçkünlər mərhələli şəkildə öz doğma yurdlarına qayıdırlar. Qarabağ və Şərqi Zəngəzur yaxın gələcəkdə, sadəcə, Azərbaycanın deyil, bütövlükdə Qafqazın və dünyanın ən gözəl və inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Bütöv Azərbaycanın Zəfər tonqalı

**Düz altı ildir ki, bahar yurdumuza bir başqa ovqatla qədəm qoyur. İllərdir həsrətini çəkdiyimiz Qarabağ və Şərqi Zəngəzurda alovlanan bayram tonqalları sadəcə təbiətin oyanışını deyil, həm də milli qürurumuzun, tarixi ədalətin və böyük Zəfərin rəmzinə çevrilib.**

**Artıq bu yurdlarımızın başındakı duman avazıyıb, çən-çiskin dağılıb və bütöv Azərbaycan başdan-başa bayram libasına bürünüb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu elimizə, obamıza qələbə, bayram ərməğan edib. Yüz minlərlə keçmiş məcburi köçkünün Vətən yarasına məlhəm çəkilib və yurda böyük qayıdış başlayıb.**



## Şuşadan Xankəndiyə

Qarabağın xilaskarı İlham Əliyev 2021-ci il martın 20-də Şuşada, Cıdır düzündə bayram tonqalı alovlandırdı. Bu, azad Şuşada qalanan ilk Novruz tonqalı olaraq yaddaşlara yazıldı. Şuşada qalanan Zəfər tonqalı birliyin, bütövlüyün və sarsılmaz iradənin sönməz rəmzi kimi tarixə çevrildi.

Dövlət başçısı həmin gün xalqımıza müraciətində bu tarixi anın əhəmiyyətini belə ifadə etdi: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik".

2021-ci ilin martında Şuşada, Cıdır düzündə alovlanan o ilk tonqal Azərbaycanın müasir tarixinə sadəcə bir bayram hadisəsi kimi deyil, milli ləyaqətin bərpası kimi daxil oldu. Çünki bu od, atəş düşmənin "yenilməzlik mifi"nin külə çevrildiyini göstərdi, onilliklər boyu işğalın əbədiliyi barədə formalaşdırılan saxta təsəvvürlər həmin tonqalın alovu ilə yanıb yoxa çıxdı.

Tarix boyu bu torpaqlarda kök salmış Novruz ənənələri işğal dövründə zorla dayandırılmışdı. Müzəffər Ali Baş Komandanın Şuşada həmin tonqalı özü alovlandırması həm də azərbaycanlıların bu torpaqların əzəli sakinləri olmasını dünyaya bir daha nümayiş etdirdi. Gur alovlanan bayram tonqalı Azərbaycanın Şuşaya yalnız fiziki olaraq deyil, həm də dəyərləri, ruhu və kimliyi ilə qayıdışının simvolu oldu.

2021-ci ildə Şuşada alovlandırılan bu tonqalın işığı bütöv Azərbaycana yayıldı. O, təkcə Şuşanı deyil, bütün Qarabağı işıqlandıran çırağa çevrildi. Vətən qibləmizdə qalanan o atəşin hərarəti az sonra Xankəndidə, Xocalıda və Ağdərədə... alovlanacaq qələbə tonqallarına da sirayət etdi.

Xilaskar lider İlham Əliyevin hər il azad olunmuş bölgələrimizin birində tonqal qalaması artıq müqəddəs bir ənənəyə çevrilib. 2024-cü il martın 18-də Xankəndi şəhərində alovlanan tonqal isə bütöv Azərbaycanın suverenliyinin simvolu idi.

Həmin gün dövlətimizin başçısı Xankəndidən bəyan etdi ki, burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə yeksan edildi: "Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

Ötən il isə bu xoş ənənə Ağdərənin Həsənriz kəndində davam etdirildi.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Həsənriz kəndinə köçən bir qrup sakinlə görüşdülər, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış oldular. Yurda qayıdış sevincini və buna görə yaşadığı minnətdarlıq hissini Həsənriz sakinlərindən biri həmin vaxt bu sözləri ilə ifadə etmişdi: "33 ildən sonra bizi doğma Vətənə, ata-baba yurduna qaytarmağınız bizim üçün böyük səadətdir, eyni zamanda elimiz-obamız üçün yeni həyatın başlanğıcıdır...

...Sizin komandanlığınız altında Azərbaycan Ordusu cəmi-cümlətanı 23 saata işğala son qoymuşdur. Çox sağ olun, cənab Prezident, Siz Azərbaycan xalqının, o cümlədən dövlətimizin gücünü dünyaya bəyan etdiniz".

## Doğma ocağın hərarəti

Zəfər salnaməmizin növbəti bayram səhifəsi bu il Xocavənd rayonunun Xanoba kəndində yazıldı. Martın 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobada fərdi evlərin bərpası və infrastruktur işləri ilə tanış olaraq, kənd sakinləri ilə bir araya gəldilər.

Bu görüş doğma ocağa qayıdan insanların sevincinə şərik olmağın dövlət-xalq birliyinin növbəti nümayişi idi. Dövlətimizin başçısı kənddə məskunlaşmış Bəybalı Qasımovun evinə baş çəkərək qonaq oldu. Bir vaxtlar göz yaşları ilə yurdundan ayrılan insanların indi öz yeni, abad evlərində ölkə rəhbərini qarşılaması Böyük qayıdışın ən təsirli mənzərələrindən biri idi.

"Cənab Prezident, 1992-1993-cü illərdə buradan göz yaşları içində ayrılmışdıq, amma indi sevinc hissi ilə qayıtdıq - Sizin, liderliyinizin, "dəmir yumruğ"unuzun və ordumuzun qüdrətinin sayəsində geri döndük. Allah şəhidlərimizin ruhlarını şad etsin, qazilərimizə cansağlığı versin", - deyə Xanoba sakinlərindən biri öz sevinc və minnətdarlıq hisslərini bu təsirli sözlərlə ifadə etdi.

Sakinlərlə səmimi söhbət zamanı dövlət başçısı vurğuladı ki, ən əsası odur ki, siz doğma Qarabağ torpağına qayıtmısınız: "Bu bölgənin işğalçılardan azad edilməsindən iki il keçib - Xanoba kəndi 2023-cü ilin sentyabrında azad edilib və bərpa işləri dərhal başlayıb. Evlər yenidən tikilib, bütün lazımi şərait yaradılıb. Şanlı Qələbəmiz illərdir ki, qürur mənbəyidir. Novruz bayramını Qarabağda altıncı ildir qeyd edirəm. İlk dəfə 2021-ci ildə olmuşdu və o vaxtdan bəri hər il Novruz ərəfəsində Qarabağdayam və birlikdə burada Novruz tonqalını yandırırıq. Bu, böyük sevincdir".

Prezident İlham Əliyevin Xanoba sakinləri ilə birlikdə Novruz tonqalını yandırması isə xüsusi rəmzi məna daşıyırdı. Bu tonqal həm də 2023-cü ilin sentyabrında tam azad olunan Qarabağın yenidən doğuluşunun, quruculuğunun müjdəçisi idi.

Dövlət başçısının Xanobadan bildirdiyi kimi: "Xoşbəxt yaşayın, bu dəfə sülh, əmin-amanlıq və təhlükəsizlik içində. İndi yaratmaq və qurmaq vaxtıdır".

## Bayramın mübarək, Vətən!

Bu gün Qarabağda və Şərqi Zəngəzurda şölələnən tonqallar həm də Ulu Öndər Heydər Əliyevin vaxtilə ifadə etdiyi böyük inamın gerçəyə çevrilməsidir. 1998-ci ildə Ümummilli Lider məcburi köçkünlərlə görüşündə uzaqgörənliklə deyirdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında... keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

Bu gün həmin vəsiyyət icra olunub. Qarabağ azaddır və artıq burada yenidən həyat qaynayır. Ərazilərimiz işğaldan azad ediləndən dərhal sonra Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında burada genişmiqyaslı quruculuq işlərinə başlanılıb, sürətli Böyük qayıdışa start verilib.

Düz altı il bundan əvvələ qədər bayram günlərində Tanrıdan yalnız bir istək diləyərdik: gələn il Novruzu Qarabağda qeyd edək. Artıq saf diləklərimizin çin olduğu xoşbəxt günləri yaşayırıq.

Otuzillik ağrı-acıdan sonra azad torpaqlarımızda yaradılış rəngi olan zümrüd rəngi hakimdir. Xankəndidən Bakıya, Şuşadan Qubaya, Laçından Astaraya qədər bütün Azərbaycanda çatılan Zəfər tonqallarının işığı qəlbimizə rahatlıq yayır.

Bayramın mübarək, bütöv Azərbaycanım, sənə zəfər yaraşır!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# BMT-nin beynəlxalq status verdiyi bayram

Xalqımızın qədim bayramı olan Novruz bu gün də adət-ənənələrə uyğun şəkildə Azərbaycanın bütün bölgələrində təmtəraqla qeyd olunur. Su Çərşənbəsindən başlayan bayram ab-havası martın 20-də baharın yurdumuza qədəm qoymasına qədər davam edir. Novruzda şirniyyatlar bişirilər, küsülülər barışar, tonqallar qalanar, insanlar bir-birilərinə qonaq gedir, bayram sovqatları aparırlar. Bu adətlər qədimdən bu günə daşınaraq hələ də özünəməxsusluğunu saxlayır.

Novruz, həmçinin bəzi ölkələrdə təqvim ilinin başlanğıcıdır. Məsələn, martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. Novruzda dünyanın bir sıra ölkələrində bayram şənliklərinin şahidi oluruq. Ona görə də Novruz bayramı 2009-cu il sentyabrın 30-da UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib, eyni zamanda Beynəlxalq Novruz Günü statusu alıb.



2010-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 21 martın Beynəlxalq Novruz Günü elan olunması haqqında qətnamə qəbul etdiyini xatırladan Milli Məclisin deputatı Rizvan Nəbiyev qəzetimizə açıqlamasında deyib ki, qətnaməni BMT-yə təqdim edən əsas təşəbbüskar ölkələr Azərbaycanla yanaşı, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan olub. Sonradan qoşulan əlavə həmmüəlliflər arasında isə Albaniya, Hindistan və Şimali Makedoniya yer alıb. "Qətnamə 2010-cu il 23 fevralda BMT Baş Assambleyasının 64-cü sessiyasında qəbul edildi və 21 mart rəsmi olaraq Beynəlxalq Novruz Günü elan olundu. Sənəddə bildirilir ki, Novruz təxminən 3000 illik tarixə malikdir və Orta Asiya, Yaxın Şərq, Qafqaz, Balkanlar və digər bölgələrdə yaşayan 300 milyondan çox insan tərəfindən qeyd olunur. Buna görə də, Novruzun yalnız bayram kimi deyil, həm də beynəlxalq sülh və mədəni dialoq simvolu kimi tanınması nəzərdə tutulur", - deyə deputat bildirib.

Rizvan Nəbiyev qeyd edib ki, qətnamədə vurğulanan əsas ideyalar arasında mədəniyyətlərarası dialoq və tolerantlıq yer alır. Novruz minilliklər boyu müxtəlif xalqlar tərəfindən qeyd edilən və mədəniyyətləri birləşdirən ənənədir. Bu bayram insanların qarşılıqlı hörmətini, tolerantlığı, mədəni müxtəlifliyin qorunmasını təşviq edir.

Deputat onu da diqqətə çatdırıb ki, BMT sənədində Novruzun sülh mədəniyyətini, həmrəyliyi təşviq edən bir ənənə olduğu vurğulanır: "Baharın başlanğıcı kimi Novruz yeniliyi, barışı, insanlar arasında həmrəyliyi simvolizə edir. Bu ideya UNESCO tərəfindən də dəstəklənir. UNESCO Novruzu bəşəriyyətin qeyri-maddi mədəni irsi kimi tanıyıb. Novruzun fəlsəfəsi BMT-nin əsas prinsipləri ilə uzlaşır: xalqlar arasında dostluq, mədəni irsin qorunması, dayanıqlı inkişaf və sosial həmrəylik".

Deputat bildirib ki, bu qətnamə Novruzu regional bayramdan çıxararaq qlobal mədəni hadisə səviyyəsinə yüksəldib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "NovruzFest II" lənkəranlıları ətrafına topladı

Şəhər icra hakimiyyətinin, regional Mədəniyyət, Təhsil, Gənclər və İdman idarələrinin təşkilatçılığı və tərəfdaşlığı ilə Lənkəranda "NovruzFest II" adlı regional tədbir keçirilib.



Şəhər rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, regional idarələrin, təşkilat, müəssisə və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri festivalın rəsmi hissəsi Dövlət himninin səslənməsi və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirələrinin yad olunması ilə başlayıb.

Xalqımızın mənəvi sərvətlərindən sayılan akademik Cəmil Əliyev kimi ziyalılar hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Onun həyat yolu sağlam düşüncəyə sədaqətin, Vətənə bağlılığın, xeyirxahlığın və yüksək məsuliyyət hissinin parlaq nümunəsidir. Cəmil müəllim gördüyü hər bir işi sadəcə vəzifə kimi deyil, mənəvi ucalığa aparan bir missiya kimi qəbul edir. O, davranışı və fəaliyyəti ilə daim bu yüksəkliyə layiq olmağa çalışır. Belə ziyalıların mövcudluğu cəmiyyətin inkişafına güc verir, xalqı yeni uğurlara ruhlandırır, milli məqsədlərə doğru inamla irəliləməsinə təkan yaradır.

**Belə bir insanı yaxından tanımağımın, uzunmüddətli həmkarlıq və dostluq münasibətlərimizin verdiyi fəxarət hissi ilə Cəmil müəllimi 80 illik yubileyi münasibətilə təbrik edir, doğmaları ilə birgə uzun, sağlam ömür, həyat və fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.**

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 29 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15 (Naxçıvan MR, Sədərək rayonu)<br>25 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15 (Yardımlı rayonu) 29 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02 (Hacıqabul rayonu) 23 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 05, 06 (Ağcabədi rayonu)<br>19, 20 (Füzuli rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 04 (Salyan rayonu)<br>11 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 12, 26 (Tovuz rayonu)<br>13, 27 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 11, 25 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 09, 29 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 09, 23 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 10, 17 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 11 (İmişli rayonu)<br>25 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 08, 22 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 02, 09, 16, 23 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 10, 22 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 11 (Göygöl rayonu)<br>18 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 10, 24 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 11 (Goranboy rayonu)<br>25 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 08, 20, 22<br>(Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 01, 16 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99455 274 6044<br>68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 11 (Goranboy rayonu)<br>25 (Gəncə şəhəri) | Sahib Əmiraslanov +99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 08, 22 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090 Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 08 (Göyçay rayonu)<br>29 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 15, 23 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 11, 25 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 09, 23 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 11, 18 (Kürdəmir rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 11, 25 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18, 25 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 22, 29 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 04, 11 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 11, 25 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 09, 23 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 03, 17 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 04, 20 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 08, 22 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 14, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 09, 23 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 18, 25 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 11, 25 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 11, 18 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 15, 22 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 01 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 25 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 08, 22 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 29 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 04, 25 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 01, 15 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 09, 23 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 08, 18 (Masallı rayonu) | Günel Mehdizadə +99450 744 0488<br>Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 19 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 18 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 04, 18 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 06, 13 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 06, 20 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872<br>77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 04, 18 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 02, 23 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 22, 29 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 11 (Astara rayonu)<br>25 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 03 (Bakı şəhəri) 06 (Şamaxı şəhəri)<br>09 (Bərdə rayonu) | Anar Əliyev +99450 355 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 06, 20 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 09, 23 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 08, 16 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 12, 19 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 08, 22 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 08 (Bakı şəhəri)<br>22 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 06, 20 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 25 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 11, 25 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 04, 18 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 19, 26 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 06, 25 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 04 (Siyəzən rayonu)<br>11 (Quba rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 11, 12 (Tərtər rayonu) 25 (Goranboy rayonu)<br>26 (Bərdə rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 04 (Cəbrayıl rayonu) 18 (İsmayıllı rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 02, 09 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 08, 22 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 11, 25 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 08, 22 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 04, 18 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 11, 18 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 01, 09 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 25 (Qax rayonu)<br>26 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 06, 13 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 06, 20 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 10, 24 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 10, 24 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 01, 15 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 08, 20 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 09, 16 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 03, 17 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 11, 18 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 10, 18 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 13, 20 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11 (Tovuz rayonu) 25 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 08, 20 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 02, 29 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 08, 22 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 21 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 07, 21 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 09, 23 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 04, 11 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 04, 16 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 11, 25 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 11 (Naxçıvan MR, Ordubad rayonu)<br>25 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 09, 30 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 09, 22, 23 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 09, 29 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 29 (Qazax rayonu) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 02 (Qobustan və İsmayıllı rayonları)<br>23 (Şamaxı rayonu) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 07, 22 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 09, 23 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 11, 25 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 13 (Abşeron rayonu)<br>27 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 08, 22 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 03, 15 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 08, 22 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 13, 27 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 04, 12 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 04, 18 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.




# Gəncədə Novruz ovqatı yaşanır





Gəncədə şəhər icra hakimiyyətinin, Regional Mədəniyyət İdarəsinin, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının, Gəncə Dövlət Kukla və Dövlət Dram teatrlarının təşkilatçılığı ilə Novruz bayramı təntənə ilə qeyd edilmişdir.

Əvvəlcə iştirakçılar Cavad xanın filarmoniyasının önündə yerləşən məqbərəsini ziyarət edərək məzarı üstünə gül dəstələri düzmüşlər. Sonra tədbir iştirakçılarını Dədə Qorqud və Bahar qız qarşılayaraq xeyir-dua vermiş, xoş arzularını çatdırmışlar. Bayram proqramı çərçivəsində 5 nömrəli musiqi məktəbinin uşaq aşıqlar ansamblı, 1 nömrəli musiqi məktəbinin nəfəsli alətlər ansamblı, "Xəmsə" nağaraçılar ansamblı, eləcə də idmançıların nümunəvi çıxışları təqdim olunmuşdur. Tədbirə toplaşanlar sonra Gəncə sənətkarlarının yaradıcılıq sərgisi və Urban Mərkəzində təşkil edilən "Bahar sərgisi" ilə tanış olmuşlar. Bayram şənliyində Keçəl və Kosanın çıxışları da maraqla qarşılanmışdır.

Novruz bayramı Gəncə Dövlət Filarmoniyasının Göygöl Dövlət Mahnı və Rəqs Ansamblının təqdimatında konsert proqramı ilə davam etmişdir.

Sonda şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov və 44 günlük Vətən müharibəsi iştirakçısı Elmar Nəsirov bayram tonqalını alovlandırmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bənövşənin döydüyü qapı





Novruz şəffaflığın, inancların, inamın bayramıdır. Ölkəmizin hər yerində olduğu kimi, Siyəzəndə Baharı xüsusi şövqlə qeyd edirlər. Burada keçirilən adətlərin çoxunun min illərlə yaşı vardır.

Multikultural dəyərlərə söykənən vətənimizdə yaşayan bütün azsaylı xalqlar Novruzu müxtəlif adətlərlə qarşılasalar da, hamısı Azərbaycan ənənələrinə söykənir. Siyəzənin Sədan kəndində yaşayan tatlar martın əvvəlindən bayrama hazırlaşar. Kəndin hər evində təmizlik işlərinə başlanar. Ağaclar əkilər, budanar, olanlar kəsilər. Demək olar ki, hər həyətdə qurbanlıq bir quzu seçilər ki, onu bayramda kəsərlər. Əvvəl onu yaxınlara paylayar, qalanını bozbaş bişirib 7 evə göndərərlər.

Hər çərşənbədə kənd kitabxanasının həyətində Sədanın tarixini yaşadan, arxeoloji qazıntılardan tapılan eksponatların sərgisi təşkil edilər. Kəndin ağsaqqalları deyir ki, hər kəs yaşadığı yerin, ölkənin tarixini bilməlidir. Elə tonqal da orada qalanar və demək olar ki, bütün kənd oraya topalaşar.

Hələ çərşənbələrdə kəndin bir evini seçərlər ki, halvanı orada bişirsinlər. Sonra hərə bayram halvasını hazırlamaq üçün nə lazımsa alar və həmin evə göndərərlər. Torpaq çərşənbəsinin ertəsi kəndin yaşlı qadınları yığışıb həmin halvanı bişirməyə başlar. Səmənidən hazırlanan halva bayram başlamamışdan kənddə bütün evlərə paylanar. Sonra papaqatdı başlayar və kəndin qapıları döyülər;

*Əzizim bənövşədi,*
*Qonağın bənövşədi,*
*Döydük sənin qapını,*
*Elə bil bənövşədi.*

Kənddə bənövşəni o qədər sevirlər ki, yazın gəlişini onunla ölçərlər. Bayram və çərşənbələrdə yaxınlıqda yerləşən kəndlərə at sürüb yarışarlar. Bir də Novruz adətlərindən olan xoruz döyüşdürülməsi burada xüsusi qeyd edilir. Sonra şeir və bayatı yarışması başlar;

*Suyunu artıq eylə,*
*Odunu ılıq eylə,*
*Bahar gəzsin dolansın,*
*Yerini bolluq eylə.*

Bayram axşamı respublikamızın müxtəlif bölgələrində yaşayan sədanlılar kəndə gələr, tonqal ətrafında əyləşər və çalışıb səhəri bir yerdə açarlar. Sonra qonaqlıqlar başlayar, bir-birinin evini ziyarət edərlər. Beləcə, dağlar qoynunda Bahar öz xoş günlərinə başlar.

***Amin MURADZADƏ,***
***Qarabağ Universitetinin tələbəsi,***
***Siyəzənin Sədan kənd sakini***

# Sumqayıtın Novruz növrağı





Sumqayıt bulvarında böyük canlanma vardı. Səhər saatlarından insanlar bulvarda yerləşən Bayraq muzeyi və Muğam Mərkəzinin qarşısına yığışırdı. Hamının üzündə yaz təbəssümü dolanırdı. Ortada odunlar yığılmış, ətrafında Novruz atributları düzülmüşdü. Milli geyimli məktəblilər əllərində səməni başlayacaq tədbirin məşqini edirdilər.

İnsanlar görüşür və bir-birinin bayramını təbrik edirdi. Taleh Ələkbərov nəvələri ilə birlikdə bayram sevincini bizimlə bölüşdü: "Mən hər il Novruz bayramında Sumqayıtda keçirilən tədbirlərə qoşuluram. Özüm kimya sahəsində çalışmışam, hazırda təqaüddəyəm. Nəvələrimi buraya gətirib bizim milli bayramımızı onlara əyani göstərirəm. Çünki göz yaddaşı uzun müddət unudulmur". Şəhid anası Maisə Səbuhi də söhbətə qoşuldu: "Sumqayıtda bütün bayramlar yüksək səviyyədə keçirilir. Novruz isə onların içində xüsusilə seçilir. Çox sevinirəm ki, artıq neçə ildir biz bayramlarımızı suveren ölkənin vətəndaşları kimi qeyd edirik. Bunu bizə yaşadan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirik".

Bir qədər sonra bayrama start verildi. Şəhər rəhbərliyi, ictimaiyyət nümayəndələri, qonaqlar bayram tonqalının ətrafına yığışdılar. ŞİH-in başçısı Z.Fərəcov bayram tonqalını alovlandırdı. Kosa və Keçəl əllərində xurcun şənliyə bir qədər də şənlik qatdılar. Meydana daxil olan Dədə Qorqud odun tarixindən, Bahar bayramının köklərindən söz açdı. Alp ərənlər qılınc çəkib, qurşaq tutub güləşdilər. Saz ustaları ölkəmizin şəninə bayatılar deyib, mahnılar ifa etdilər. Bahar qızın gəlişi alqışlarla qarşılandı və onun əlindəki səməni tonqalın kənarında ayrılmış xüsusi yerə qoyuldu. Milli geyimli qız və oğlanlar rəqs etdilər. Şəkərbura, paxlava, qoğal dolu xonçalarla rəqs edən qızlar sovqatları iştirakçılarla bölüşdülər.

Sonra şənliyə dəvət olunmuş sumqayıtlı incəsənət xadimlərinin ifasında şən mahnılar səsləndirildi. Yazın gəlişini bildirən və xalqımızın milli-mənəvi dəyərlərini yaşadan müxtəlif oyunlar, zarafatlar, şən-şux mahnılar hamıda xoş ovqat oyatdı. Bayram şənliyi Sumqayıt bulvarı boyu gəzinti ilə davam etdi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***




# Əsrlərdir "repertuar"dan düşməyən Novruz tamaşaları



Sevincini yaşadığımız bütün bayramlar özünəməxsus rəmzləri, şənlikləri, dillərdə dolaşan sözləri, mahnıları və maraqlı oyunları, tamaşaları ilə qəlblərdə, ürəklərdə xoş təəssüratlar oyadır. Bu baxımdan, xalqımızın böyük sevinclə qeyd etdiyi bayramlardan biri də Novruzdur. Hər il Novruz bayramı ilk qədəmlərini atanda sanki həyat yenidən doğulur, yenidən başlayır.

Yəqin elə buna görədir ki, hələ qədim zamanlardan müdriklər martı təbiətin oyanış, dirçəliş ayı da adlandırıblar. Çünki bu ayda torpaq isinir, çayların, göllərin buzu əriyir, qış aylarında dağların başını ağ örpəyə bürüyən qar görünməz olur. Su kənarlarında cücərib yaşıllaşan otlar səmaya boylanır, Günəşlə salamlaşır. Beləcə, təbiət oyanır, yavaş-yavaş xalqımızın sevimli bayramı olan Novruz gəlir. Novruz gəlişi ilə insanlara sevinc, fərəh bəxş edir, yaşamaq həvəsini artırır.

Yaddaşımızda özünə dərin yer eləmiş Novruz dəyərli hikmətləri, adət-ənənələri, milli oyun və rəqsləri ilə xalqımızın sevimli bayramıdır. Bu bayram münasibətilə bütün bölgələrdə müxtəlif mərasimlər, şənliklər, oyunlar keçirilir, xalq tamaşaları göstərilir. Belə oyunların və tamaşaların içərisində ən maraqlısı hamımızın dönə-dönə baxdığı "Kosa-kosa"dır. Bu oyun o qədər ürəyimizə, qəlbimizə yatıb ki, Novruz bayramı sözünü dilimizə gətirəndə ilk yadımıza düşən, gözlərimiz qarşısında canlanan səhnələr Kosa ilə Keçəlin məzhəkəli oyunları, bir-birilə deyişməsi, yumurta döyüşmələri olur. Bu obrazlar yadımıza düşəndə özümüzdən asılı olmadan çöhrəmizə təbəssüm qonur.

Bir-birindən üstün olduqlarını göstərməyə çalışan Kosa və Keçəl ətrafına toplaşmış insanlar qarşısında məzəli oyunlar nümayiş etdirir, gülüş doğuran lətifələr danışır, yumurta döyüşdürür, maraqlı hərəkətlər edir, şeir söyləyir, mahnı oxuyurlar. Bütün bu söhbətləri, sözləri, mahnıları və hərəkətləri ilə bir növ bacarıqlarını göstərirlər. Bu maraqlı oyuna qatılanlar qurd, tülkü, çaqqal qılıqlarına girirlər. Zirək və hazırcavab bir nəfərə kürkü tərsinə geyindirirlər, üzünü unlayır, başına motal papaq qoyur, ayaqlarının altına ayaqqabı formasında ağac sarıyırlar. Boynuna zınqırov salır, paltarının altından qarnına yastıq bağlayır, bir çömçəni qırmızı bəzəyib əlinə verir və qapı-qapı gəzdirib, oynada-oynada pay yığırlar. Kosanı gəzdirənlər dillər əzbəri olan bu mahnını oxuyurlar:

*Ay kos-kosa, gəlsənə,*
*Gəlib salam versənə.*
*Çömçəni dolursana,*
*Kosanı yola salsana.*

Dinləyənlərdə şən ovqat yaradan mahnı başa çatan kimi "kosa öldü", - deyib yerə yıxılır. Bu zaman ətrafına toplaşanlar ona müxtəlif suallar verirlər. Kosa da onların suallarını cavabsız qoymur:

*- Kosa, haradan gəlirsən?*
*- Dərbənddən.*
*- Nə gətirmisən?*
*- Alma.*
*- Almanı neylədin?*
*- Satdım.*
*- Pulunu neylədin?*
*- Öküz aldım.*
*- Öküzü neylədin?*
*- Vurdum, öldü.*

Novruz yurdumuza qədəm qoyduğu ilk günlərdən Kosa ilə Keçəlin qapı-qapı gəzib hər evə, hər ocağa şənlik yaşatması yalnız böyüklərin deyil, uşaqların da böyük sevincinə səbəb olur. Onlar üz tutduqları hər evə, hər həyətdə sevinclə qarşılanır, gülərüzlə yola salınır. Əsrlərdən bəri yol gələn bu personajlar getdikləri evlərə xeyir, bərəkət gətirər.

Məlumdur ki, "Kosa-kosa" oyunu hələ sovet hökumətinin qadağalarının tüğyan etdiyi zamanlarda filmlərimizə də ayaq açmışdı. Yəqin ki, tamaşaçılar "Yeddi oğul istərəm" filmindəki həmin səhnəni xatırlayırlar. Keçəllə Kosanın bu filmdə nümayiş etdirilməsi xalqımızın Novruz adətlərinə, xalq tamaşalarına olan sevgisindən qaynaqlanırdı.

Bəzi mənbələrdə göstərilir ki, torpağa ana bətni kimi baxan qədim insanlar düşünürmüşlər ki, onu daha da məhsuldar etmək üçün "Kosa-Kosa"ya oxşar oyunları ev və həyətlərlə yanaşı, əkin yerlərində, tarlalarda da oynamaq yaxşı nəticə verər. Onda torpaq daha tez canlanar, çox məhsul verər, el-obada bolluq yaranar. İnsanların dolanışığı daha da yaxşılaşar, firavanlıq içində yaşayar.

"Kosa-kosa" oyunları ilə yanaşı, Novruz bayramının davam etdiyi günlərdə lap qədimlərdən "Motal-motal", "Qurd basdı", "Çövkən", "Cızıq turnası", "Gizlənpaç", "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pul-pula", "Zorxana", "Sino", "Mil", "Qəpəq", "Fincan-fincan", "Bənövşə", "Dirədöymə", "Çalabaşı", "Yelləncək", "Maral oyunu", "Kilimarası", "Kəndirbaz", "Sim pəhləvan", "Masqara", "Gözübağlıca", "Cıdır" və başqa oyunlar, tamaşalar həm uşaqlarda, həm də böyüklərdə xoş ovqat yaradır. Bu xalq oyunları və tamaşaları əsrlərin dərinliklərindən yol gələ-gələ bu günümüzə çatıb. Bu gün də Novruz bayramında hamı həmin tamaşalara, oyunlara böyük maraqla baxır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Novruz həm də bərəkət bayramıdır

## Bərəkət isə israfçılıqla bir araya sığmır

Novruz bəlkə də yeganə bayramdır ki, ona hazırlıq xeyli əvvəldən başlanır. Evlərdə, həyətlərdə, bağ-bağatda təmizlik işləri görülür, səliqə-sahman yaradılır. Əslində, Novruzun özünə qədər daha bir silsilə bayram qeyd edirik. Su, Od, Yel və Torpaq çərşənbələrinin hərəsi əsl bir bayrama çevrilir. Hamısında hər birimiz öz imkanlarımız daxilində bolluca bazarlıq edir, süfrə açırıq.

Bunlar çox gözəldir. Çünki Novruz yaz, gözəllik bayramı olmaqla yanaşı, həm də ruzi-bərəkət, bolluq bayramıdır. O da təsadüfi deyil ki, Novruzda hamı bir-birilə bayramlaşır, bir-birinə qonaq gedir, öz təknəsində olan nemətlərdən qohuma, qonşuya, dosta pay verir.

Mənim doğulub böyüdüyüm bölgənin adətinə görə, bayramda, ələlxüsus da İlaxır çərşənbədə ailənin təknəsində olan ən əziz nemətlərin hamısı süfrəyə düzülərdi. Anamızın, nənəmizin tədarük edib küncdə-bucaqda saxladığı bütün təamlar həmin gün ortaya qoyulmalı idi. İlaxır çərşənbə gününün axşamı analarımız evdən çıxmağa macal tapmasalar, ən azı şirniyyatla, çərəzlə, hətta bişirdiyi aşla dolu sinini uşaqların əlinə verib qohum-qonşuya pay göndərərdi. Hərçənd ki, elə payın çatacağı evin özündə artıq aş bişmiş olurdu... Bu məqamlarda ətrafdakı ehtiyacı olanlar mütləq diqqətdən kənarda qalmamalı idi! Əlbəttə, alınan, hazırlanan nə vardısa, israfçılığa yol verilmədən istehlak olunardı. Sözümüzün canı da elə budur: bərəkər bayramı olan Novruz israfçılığı sevmir!



Necə deyərlər, hər şey öz qədərində, öz əndazəsində gözəldir. Yaşadığım evin qonşuluğunda şadlıq sarayı yerləşir, qabaq-qənşərində də zibilxana. Hər gün oradan keçəndə tullantıya çevrilmiş nə qədər ərzaq görürəm, bu, öz yerində. Yəni bunu sözgəlişi dedim. Bəs Novruzdan sonra burada nə baş verir? O baş verir ki, zibil qutularına nə qədər çürümüş qoğal, qurumuş çərəzlər, məsələn, innab, iydə, xırda xirnik və s. atılır. Sellofan torbalarda nə qədər boyat aş tullantıya çevrilir. Bu, bizə qismət etdiyi ruzinin müqabilində Allaha şükranlıq əvəzinə asi olmaq demək deyilmi?

Kimsə deyə bilər ki, axı Novruzda insanlar bir-biri ilə bayramlaşır. Ona görə də hər evdə qonaq gözləyir, bu səbəbdən bol-bol şirniyyat hazırlayır, xörəyi lazım olandan artıq bişirirlər. Lakin onu da nəzərə almaq lazımdır ki, süfrədə onsuz da löyün-löyün nemətlər olur. Bizim bayram süfrələrimizdən doymamaq mümkün deyil!

Bu da danılmaz həqiqətdir ki, bayramdan sonra çoxumuz özümüzdə ağırlıq hiss edirik, yəni çəkimiz artır. Məhz bunun da bir ucu gəlib bağlanır həmin israfçılıq məsələsinə, bayram tədarükü zamanı həddi aşmağımıza... Halbuki Novruzda bir-birimizə arzu-diləklərimizdən ən ümdəsi cansağlığı olur.

Arzu-dilək demişkən, Novruzda bunların rəmzinə çevrilən əvvəlcədən göyərtdiyimiz səmənilər olur. Hər il hələ qışın ömrünə xeyli qalmış yazın həvəsi, eşqi, şövqü ilə: "Səməni, ay səməni, saxla məni, ildə cücərdərəm səni", - deyərək ürəyimizdə min niyyət tutur, arzularımızı dilə gətiririk. Bəzən də bir sini, ya bir nəlbəki əvəzinə bir neçə qabda səməni cücərdirik. Buna ehtiyac oldu-olmadı. Burada da israfçılığa yol vermək olmaz! Bir evə, bir ailəyə simvolik olaraq bir səməni bəs etməzmi? Axı bu, buğdadan yaranır.

Adi bir hesablama aparmağa cəhd edək. Bir qabda səməni göyərtmək üçün yüz qram buğda tələb olunursa və hər xanım beş səməni göyərdirsə, bu, yarım kiloqram buğda deməkdir. Bu hesabla 10 qadının səməni göyərtməsinə beş kiloqram buğda sərf olunur. Kiloqramlar üst-üstə gələrək tonlara çevrilir.

Bayram bitəndən sonra isə səmənilər nəinki tullantı qutularının içində, hətta bəzən ətrafda ayaqlar altında əzilən görürük. Günahdır bu! Təkcə arzularımızın rəmzinə çevirdiyimiz, müqəddəs bildiyimiz, əlimizlə bəslədiyimiz yaşıllığa deyil, bundan öncə də bərəkətə, çörəyə nankor olmaq deməkdir.

Bildiyimizə görə, bəzi bölgələrimizdə qız-gəlin bayramdan sonra çay qırağına gələrək səmənilər axar suya atır və yenə də qəlblərinin istəyini dilə gətirirlər.

Bəlkə bayramdan sonra səmənilər bir yerə toplayıb toyuq-cücəsi, mal-qarası olana, yaxud yaxınlıqdakı fermalara vermək də olar. Ən azı bu bərəkət rəmzini əldən-ayaqdan uzaq, təmiz bir yerə qoymaq lazımdır.

Bu il Novruz və Ramazan bayramlarımız qoşalaşdı. Necə deyərlər, bayram bayrama qovuşdu. Bəlkə də bu, bizi daha çox düşünməyə, ruzi-bərəkətin qədrini bilməyə, israfçılıq adlı günaha batmamağa, təknəmizdə olanlardan düzgün istifadə etməyə, onları paylaşmağa çağırır. Odur ki, israfçı olmayaq, şükürnemət, xeyirxah, mərhəmətli olaq və bundan zövq alaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***







## Xankəndidə bayram yarmarkası fəaliyyətə başlayıb

Martın 19-da Xankəndi şəhərində Novruz bayramı münasibətilə bayram yarmarkası fəaliyyətə başlayıb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə sayca 2-ci dəfə keçirilən yarmarka şəhərin Zəfər meydanında təşkil edilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yarmarkada yerli sahibkarlar tərəfindən müxtəlif növ məhsulların satışı həyata keçirilir. Yarmarkaya sakinlər tərəfindən böyük maraq müşahidə olunur. Bu gündən fəaliyyətə başlayan yarmarka martın 24-dək davam edəcək. Tədbir çərçivəsində uşaqlar və gənclər üçün əyləncəli proqramlar da nəzərdə tutulub ki, bu da bayram ovqatını daha da artırır. Qeyd edək ki, martın 20-də Xankəndi şəhərində Novruz və Ramazan bayramları münasibətilə geniş konsert proqramı və atəşfəşanlıq da təşkil ediləcək.

# İlahi mərhəmət və mənəvi kamillik ayı təqvimi tərk etsə də, ruhumuzda qalır

İnsan ruhunun saflaşdığı, qəlbin ilahi nurla dolduğu, mərhəmət və səbrin ən ali zirvəyə yüksəldiyi mübarək Ramazan ayı sona çatır. Ramazan təkcə aclığa və susuzluğa dözmək deyil, həm də nəfs üzərində qələbə çalmaq, mənəvi kamilliyə doğru addım atmaq ayıdır. Oruclıq insanı pis niyyətlərdən uzaqlaşdırır, qəlbində mərhəmət, şəfqət və vicdan hisslərini gücləndirir.



Ramazan insanın daxilinə yönəldiyi, ruhunun dərinliklərinə enərək özünü yenidən kəşf etdiyi İlahi bir fürsətdir. Bu müqəddəs ayda edilən hər bir yaxşılıq, deyilən hər bir xoş söz, edilən yardım insanın mənəvi dünyasını zənginləşdirir, onu daha saf, kamil bir varlığa çevirir. İnsan Ramazan ayında yalnız bədəni ilə deyil, ruhu ilə də oruc tutur - kinindən, nifrətindən, tamahından uzaqlaşaraq saflaşır, yenilənir, ucalır.

Yola saldığımız bu ay zamanın ən mübarək, işıqlı anlarının cəmləndiyi İlahi mərhələdir. Bu ay insan ruhuna nur bəxş edən, qəlbləri saflaşdıran, mənəvi dünyamızı zənginləşdirən bir hikmət məktəbidir. Bu ayda insan nəfsinə qalib gəlir, xeyirlə şərin mübarizəsində imanla iradənin vəhdətini tapır, ruhən ucalaraq Tanrıya daha da yaxınlaşır. Duaların qəbul olunduğu, niyyətlərin saflaşdığı bu müqəddəs zaman kəsiyi bəşəriyyətə mərhəmət, bağışlama və ümid mesajı verir. Ramazan Allahın qüdrətindən pay verib insanların yoluna nur çilədiyi, Tanrının dörd müqəddəs səmavi kitabını - Tövratı, Zəburu, İncili və Quranı göndərdiyi aydır. Ramazan xoş niyyət, arzu, dilək ayıdır. Ramazan imanın sınağa çəkildiyi, duaların qəbul olunduğu aydır.

Bu gün ilahi nurun işığında Azərbaycan xalqı öz tarixinin ən qürurlu və şərəfli dövrünü yaşayır. Uzun illər dillərdən düşməyən Qarabağ həsrəti artıq 6-cı ildir ki, yerini sevincə, minnətdarlığa və qürura verib. Bir zamanlar dualar Qarabağla başlayır, Qarabağla da bitirdi. Bu torpaqların azadlığı üçün yalnız azərbaycanlılar deyil, ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri - fərqli dinlərin, dillərin daşıyıcıları eyni niyyətlə Tanrıya üz tutur, haqqın təntənəsi üçün dua edirdilər.

İndi isə Qarabağ və Şərqi Zəngəzur torpağında həyat yenidən canlanır. O cümlədən ibadət ocaqlarımız yenidən nəfəs alır, məscidlərimizdən azan səsləri yüksəlir. Bu mənzərə Ramazanın mənəvi ruhu ilə vəhdət təşkil edərək insan qəlbində şükür və qürur hissi doğurur.

Bu böyük dirçəlişin arxasında isə güclü iradə, sarsılmaz birlik və məqsədyönlü siyasət dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl siyasət, xalq-ordu birliyi və 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər bugünkü reallıqları mümkün edib. Azad olunmuş torpaqlarda aparılan genişmiqyaslı quruculuq işləri, insanların doğma yurdlarına qayıdışı Ramazanın ümid, yenilənmə və dirçəliş fəlsəfəsinin canlı təcəssümünə çevrilib.

Bu müqəddəs günlərdə xalqımız Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir. Onların fədakarlığı sayəsində bu gün Qarabağda həyat var, azad səma altında azan səsləri yüksəlir, bayram sevinci yaşanır.

Ramazan insanı insan edən ali dəyərlərin - mərhəmətin, paylaşmağın, xeyirxahlığın bayramıdır. Oruclıq yalnız bədənin deyil, nəfsin tərbiyəsidir. Bu ay insanı başqasının halını anlamağa, əl tutmağa, bölüşməyə səsləyir. Əsl zənginlik sahib olduğunu paylaşa bilməkdə, bir qəlbi sevindirməkdə, ümidə işıq olmaqdadır. Budur, Ramazan ayının fəlsəfəsi.

Ramazan həm də birlik və barış ayıdır. Bu ay bizə eyni Vətənin övladları olmaqla birliyimizi, gücümüzü bir daha xatırladır. Ramazan duaları təkcə fərdi deyil, milli arzularımızı əks etdirir - sülhün bərqərar olması, əmin-amanlığın daim olması, gələcəyimizin daha parlaq olması üçün edilən dualardır.

Qoy bu mübarək günlərdə tutulan oruc, edilən dualar qəbul olsun. Qoy Azərbaycan daim sülh, əmin-amanlıq və tərəqqi yolu ilə addımlasın!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



BakıAbadlıq



“BAKI ABADLIQ XİDMƏTİ” MMC
Azərbaycan xalqını
NOVRUZ BAYRAMI
münasibətilə təbrik edir, birlik, firavan həyat, ruzi-bərəkət və xoş gələcək arzulayır!



# Yaddaşımızın yaşıdı Novruz

**A**zərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə yaşadan ən möhtəşəm bayramlardan biri Novruzdur. Baharın gəlişini, təbiətin oyanışını və Ay təqvimi ilə yeni ilin başlanmasını simvolizə edən bu qədim bayram əsrlər boyu Şərq xalqlarının həyatında mühüm yer tutub. Novruz həm də insanların birlik, həmrəylik və ümid rəmzi kimi qəbul etdiyi xüsusi gündür.

Əsrlərdir ki, hər il mart ayında bu bayram Azərbaycanın bütün bölgələrində böyük coşqu ilə qeyd olunur, nəsillərdən-nəsillərə ötürülən zəngin adət-ənənələrin yaşadıldığı xüsusi hadisəyə çevrilir.

Onu da vurğulamalıyıq ki, Azərbaycanın müxtəlif bölgələrində Novruzun qeyd olunması ümumi xüsusiyyətləri ilə yanaşı, yerli adət-ənənələr və maraqlı mərasimlərlə ciddi şəkildə olmasa da, müəyyən qədər fərqlənir. Başqa sözlə, hər bölgə bu bayramı özünəməxsus şəkildə qarşılayır və bununla milli mədəniyyətin zənginliyini nümayiş etdirir.

Novruz ərəfəsində ölkəmizin bütün bölgələrində hazırlıqlar həftələrlə davam edir. Ev-eşik təmizlənir, həyət-baca abadlaşdırılır, səməni qoyulur, bayram süfrələri üçün şirniyyatlar hazırlanır. İnsanlar hər zamankından daha mehriban, daha qayğıkeş, daha mərhəmətli və xeyirxah olurlar. Bayramın gətirdiyi birlik və mehribanlıq ruhu hər yerdə hiss edilir. Küsülülər barışır, qohum-əqrəba ziyarət olunur.

Kənd və qəsəbələrdə bayram günü tonqallar qalanır, gənclər tonqal üzərindən tullanaraq ilin uğurlu və bərəkətli olmasını arzulayırlar. Uşaqlar papaqatdı adı ilə evləri gəzərək bayram payı toplayırlar. Bundan başqa, kənd meydanlarında müxtəlif xalq oyunları, meydan tamaşaları və idman yarışları təşkil olunur. "Kosa-kosa", "Qodu-qodu", "Dizədöymə", "Gizlənqaç", "Bənövşə-bəndə düşə", "Topaldıqaç" və başqa oyunlar milli-mənəvi dəyərlərimiz kimi indi də qorunur.

Novruzun əsas simvollarından olan Keçəl və Kosa obrazları da bayram şənliklərinin ayrılmaz hissəsidir. Onların şən çıxışları insanlara sevinc bəxş edir və bayram əhvali-ruhiyyəsini daha da artırır.

Bayram günü hər ocaqda şamlar yandırılır, ləzzətli təamlarla dolu süfrələr açılır. Bayram süfrələrinin bəzəyi şirniyyatlar - şəkərbura, paxlava, qoğal və müxtəlif milli yeməklər olur. Bir sözlə, Azərbaycanın hər yerində xalq qədim adətlərini yaşadır.

Bununla belə, qeyd etdiyimiz kimi, ölkəmizin ayrı-ayrı bölgələrində Novruz bayramının keçirilməsində özünəməxsus xüsusiyyətlər də mövcuddur. Onların ikisi - Naxçıvan və Cənub bölgələrimizdə olan bayram ənənələrinə nəzər salaq.

Ölkəmizin zəngin Novruz adət-ənənələrinə malik olan ərazilərindən biri Naxçıvandır. Naxçıvan bölgəsində Novruz adət-ənənələri geniş şəkildə qorunub saxlanılır və hər il təntənə ilə qeyd olunur.

Bayram günləri bölgədə atüstü oyunlar və müxtəlif idman yarışları təşkil edilir. Novruz tonqalları Naxçıvanda böyük sevinclə qalanır. Tonqal ətrafında toplaşan insanlar şənlik edirlər. "Şal sallama" bu bölgənin qədim və maraqlı bayram adətlərindən biridir. Adətə görə, bayram gecəsi cavanlar evlərin bacasından və ya pəncərəsindən şal sallayırlar. Həmin şalın içərisinə ev sahibləri bayram payları qoyarlar.



Naxçıvanda böyük maraq doğuran adətlərdən biri də "Xan bəzəmə"dir. Qaydaya görə, bir nəfəri Xan seçirlər. Onu adına layiq, yəni əsl xan kimi geyindirib bəzəyirlər, başına tac qoyub meydanda düzəltdikləri hündür taxtda oturdurlar. Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. Xanı iki nəfər yelpiklə yelləyir. Xanın əmri ilə hamı çalıb oynayır. Hər kəs öz qabiliyyətini göstərir. Məclisdə olan təlxəklər xanı güldürməyə cəhd edirlər. Xan onların məzəli hərəkətlərinə gülməməlidir. Əgər gülsə, xanın özü cəzalandırılır. Onu suya basırlar. Yeni xan seçirlər. Meydanda qoyulmuş qaba hamı xələt atır. Üç gün müddətində xan vəzifəsinin öhdəsindən yaxşı gələ bilsə, həmin xələtlər ona çatır.

Ölkəmizin hər yerində olduğu kimi, cənub bölgəmizdə də Novruz ərəfəsində dörd çərşənbə təntənə ilə bayram edilir. Axır çərşənbə həftəsində bütün evlərdə bayram çörəkləri, halvalar, müxtəlif şirniyyatlar bişirilir. El arasında "kül çərşənbə" də adlandırılan İlaxır çərşənbə axşamı əvvəlcə böyüklər qəbir üstünə gedir, doğmalarının məzarını ziyarət edir, dualar oxuyurlar. Qəbir üstə şam yandırır, evdən gətirilən bayram şirniyyatlarından, xüsusən halva-külçələrdən ehsan verirlər.

İlaxır çərşənbə və Novruz bayramı şənlikləri cənub bölgəsində elliklə qeyd olunur. Adətə görə, həm İlaxır çərşənbədə, həm də Novruz bayramında şər qarışan vaxt hamı evdə, həyət-bacada olmalıdır. Yeddi yerdə küləşdən tonqal üçün yer hazırlanır, alqış sədaları altında evin böyüyü tonqala od vurur. Bütün ailə üzvləri, hətta beşikdəki körpələri də tonqal üstündən tullandırırlar və deyirlər:

Ağırlığımı yer götürsün,
Mətləbimi Allah versin!

Həmin vaxt həyətlərdən fişəng, tüfəng səsləri ucalır. Bayramın ən maraqlı adət-ənənələrindən biri də fal açmalardır. İlaxır çərşənbədə olduğu kimi, Novruz bayramı gecəsi gənc subay qızlar qismətlərinə kimin çıxacağını öyrənmək inamı ilə fal açırlar. Bayram gecələri qulaq falına, "qurşaqatdı"ya çıxırlar. Cənub bölgəsində Novruz bayramı süfrəsinə çoxçeşidli bayram çörəkləri, növbənöv plov qoyulur. Bölgənin Novruz təamlarından biri də kütüm balığıdır. İnanca görə, balıq ailəyə ruzi, bərəkət gətirir. Ona görə cənub bölgəsində həmin axşam süfrədə mütləq balıq olmalıdır. Bayram axşamı nişanlı qızların evinə ağzında qızıl üzük olan balıq, müxtəlif hədiyyələr aparılır. Yaşıllığın, təbiətin oyandığını bildirən göy-göyərti və ondan hazırlanmış kükü də bayram süfrəsindən əskik olmur. Ümumiyyətlə, inanca görə, ilaxır çərşənbə və Novruz gecələrində süfrədə "s" hərfi ilə başlanan 7 nemətin olması vacibdir. Süfrəyə səməni, müxtəlif xörəklər, şirniyyatlar düzülür. Acılıq gətirən təamlar, yəni soğan, sarımsaq bayram süfrəsinə qoyulmur.

Qeyd etdiyimiz kimi, Novruz bayramı əsrlər boyu xalqımızın milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşadan ən əziz bayramlardan biri kimi bu gün də böyük sevgi ilə qeyd olunur. Novruz bayramının əsas mahiyyəti birlik, mehribanlıq, yenilənmə və ümiddir. Azərbaycanın bütün bölgələrində eyniliklərlə yanaşı, müəyyən fərqli çalarlarla qeyd edilsə də, bayramın əsas mahiyyəti dəyişmir. İnsanları bir araya gətirən Novruz həm keçmişdən gələn zəngin mədəni irsimizi qoruyur, həm də gələcək nəsillərə ötürülən dəyərli bir ənənə kimi yaşadılır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Samuxlular bayram tonqalının başına toplaşdılar



Samuxun Heydər Əliyev parkında keçirilən Novruz şənliyinə yüzlərlə insan toplaşmışdı. Rayon sakinləri xalqımızın milli adət-ənənəsini özündə yaşadan Novruzu böyük coşqu ilə keçirmək üçün bir yerə toplaşmışdılar.

Bayram şənliyini giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev açaraq sakinləri Novruz və Ramazan bayramları münasibətilə təbrik etmiş, bu bayramların xalqımızın milli-mənəvi dəyərlərini yaşatmaqda xüsusi rol oynadığını vurğulamışdır. Qeyd etmişdir ki, belə tədbirlər rayon ictimaiyyətinin birliyini gücləndirir, mədəniyyətimizi və adət-ənənələrimizi gələcək nəsillərə ötürməkdə böyük əhəmiyyət daşıyır. Novruz bayramı xalqımızın xoşbəxtlik, sülh və birlik rəmzidir. Biz birlikdə bu bayramın ənənələrini yaşadır, hər bir sakinimizin sevincini paylaşırıq.

Sonra şənlik iştirakçıları rayon sakinlərinin əl işlərindən və yerli məhsullardan ibarət sərgiyə baxmışlar. Rayonun incəsənət ustalarının maraqlı konsert proqramı ilə davam edən tədbirin sonunda bayram tonqalı yandırılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***












# Göygöl baharı qarşılayır

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında Novruz şənliyi keçirilib.



Şənlikdə çıxış edən RİH-in başçısı Vüqar Novruzov tədbir iştirakçılarını və qonaqları bayram münasibətilə təbrik edərək Novruzun minilliklər boyu xalqımızın milli-mənəvi dəyərlərini və adət-ənənələrini yaşadan, birlik və həmrəyliyi möhkəmləndirən bayram olduğunu və bu əziz bayramın xalqımızın zəngin mədəni irsini, qədim köklərini və milli kimliyini özündə yaşatdığını qeyd etmişdir. Bildirmişdir ki, Ulu Öndər Heydər Əliyev milli irsimizə, milli ənənələrimizin qorunmasını hər zaman xüsusi diqqətdə saxlamış, Novruz bayramının dövlət səviyyəsində geniş qeyd olunmasına dəstək vermişdir: "Beləliklə, bu qədim el bayramına rəsmi dövlət statusu qazandırmışdır. Bu gün həmin ənənə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir və biz müstəqil və qüdrətli Azərbaycanda belə gözəl bayramları böyük qürur və sevinc hissi ilə qeyd edirik". Bayram şənliyi respublikanın tanınmış incəsənət ustalarının çıxışları ilə davam etmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Torpaq və İlaxır çərşənbə ilə bağlı folklor örnəkləri

Torpaqdan pay olmaz
Torpağa əyilən namərdə əyilməz
Torpaq qızılquşdur, əldən buraxdın - uçar gedər
Torpaqda əlləşən xoşbəxtliklə rastlaşar
Torpaq əkinçinin zəhmətilə zinətlənər
Torpaq deyər: - Öldür məni, dirildim səni!
Torpağa var versən, o da sənə bar verər
Torpaq deyər: - Sən mənə tər ver, mən sənə zər verim!
Torpağa göz ağardanda üz ağardar
Torpaq kimi bərəkətli ol ki, hamının sevimlisi olasan!
Torpağa xor baxsan, o sənə kor baxar
Torpaq ovuclayan qızıl ovuclar
Torpaq müqəddəsdir
Torpağın qədrini bilməyən ağlaya-ağlaya qalar
Torpaqla əlləşən ac qalmaz
Torpağı bir yerdən götürülüb
Torpağın qarası üz ağardar
Torpağın sirrini əli torpaqda olan bilər
Torpaqda itki olmaz,
Kötüksüz bitki olmaz
Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör

Torpaq haqqı!
Yer haqqı!

Torpağı sanı yaşayasan!
Torpağın həmişə gül bitirsin!
Torpağın yada qismət olmasın!
Torpağından qara yellər əsməsin!
Torpağın həmişə bar yetirsin!
Torpağın bərəkətli olsun!
Torpağına göz dikənin gözü tökülsün!
Torpağını göz bəbəyin kimi qoru!

